

Milli azadlıqdan şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
17 yanvar 2025-ci il, cümə
№ 009 (6837)
Qiymәti 60 qəpik

# 11-ci görüş...

## Azərbaycanla Ermənistan Gürcüstandan başlayaraq İranadək sərhədin delimitasiyası barədə razılığa gəlib

**2025-ci il yanvarın 16-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on birinci görüşü keçirilib.**

**Görüş zamanı Tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ilə bağlı fikir mübadiləsini davam etdirib və dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılığa gəliblər.**

**Həmçinin Tərəflər delimitasiya işlərinin görülməsi qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə ediblər.**

**Tərəflər növbəti görüşün keçirilməsinin tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.**

# Şərqlə Qərb arasında etibarlı körpü...

## Çoxtərəfli diplomatiyada zəngin təcrübə



Bax səh. 2

# Mono-etnik siyasətə son!

Bax səh. 3

## Cənubi Qafqaz - Mərkəzi Asiya vahid geosiyasi məkan rolunda...

Sirr deyil ki, 2020-ci il Vətən müharibəsi tək Cənubi Qafqazın deyil, ümumilikdə böyük bir coğrafiyanın həyatında yeni mərhələ başlatdı. Məhz müharibənin nəticələrinin ortaya çıxardığı mənzərə Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya xətti üzrə yeni iqtisadi-siyasi gündəm formalaşdırdı. Artıq bölgə özünün geocoğrafi və geoiqtisadi üstünlüklərini dividendə çevirir, proseslərdə yeni siyasi aktor qismində iştirak edir. Yeni mərhələ Azərbaycanın təşəbbüsü ilə möhkəmlənən Şərq-Qərb münasibətlər sistemi üzrə cəlbedicilik yaradıb. XXI əsrin ən mühüm çağırışı olan "əlverişli ticari yol" tematikası Şərq ilə Qərbin qovşağında yerləşən Azərbaycanın geocoğrafi imkanlarını və əhəmiyyətini yüksək səviyyədə aktuallaşdırır. Şərq-Qərb, Şimal-Cənub seqmentləri üzrə yüksək rentabelli infrastruktura malik olması Azərbaycanın iqtisadi potensialını parlaq şəkildə ortaya qoyur. Paralel olaraq bu iqtisadi göstəricilərlə yanaşı, müharibədə əldə olunan qalibiyyət və yeni siyasi reallıqlar həm də ölkəmizin bölgəsəl siyasi liderliyini möhkəmləndirir.

**Bayden administrasiyasının böyük səhvi...**

Göründüyü kimi, həm Şərqin, həm də Qərbin diqqət mərkəzində olan və Azərbaycanın yaratdığı iqtisadi-siyasi reallıqlar regionları bir-biri ilə yaxınlaşdırmaqla kifayətlənmir - təhlükəsizlik seqmentinin ən yüksək səviyyədə təminatını da reallaşdırır, gələcək əlaqələrin inkişafını da sürətləndirir. Azərbaycanın beynəlxalq hüquqa və ədalətə söykənən siyasi qərarları növbəti mərhələdə yeni nizamın gündəminin müəyyənləşməsinə əhəmiyyətli təsir göstərir. Bu isə, ümumilikdə regiona münasibətdə yeni ştrixlər formalaşdırır.

Məsələn, Azərbaycana qarşı qeyri-adekvat münasibət göstərən Bayden administrasiyasının addımları artıq uzun müddət idi ki, ABŞ-ın bölgəsəl maraqlarını təhlükə qarşısına qoyurdu - işğalçı Ermənistanın dəstəklənməsi Bayden administrasiyası üçün həm də regional əməkdaşlıq müstəvisində aşkar çətinliklər yaradırdı. Bunun səbəbləri...

Bax səh. 3



Bax səh. 4

## YAP Mərkəzi Aparatında müşavirə keçirilib

## Davamlı inkişaf naminə...

Bax səh. 4

## Yaxın Şərqdə Türkiyə amili...

Bax səh. 7

## Qərbin yeni "oyuncağı"...

Bax səh. 6

## Geniş gündəlik üzrə mühüm müzakirələr

Dünəndən Gürcüstanın xarici işlər naziri Maka Boçorişvilinin ölkəmizə səfəri başlayıb. İki gün davam edəcək səfər çərçivəsində bir sıra görüşlərin keçirilməsi nəzərdə tutulur. Bu görüşlərdə Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığın inkişaf perspektivləri, dünyada və regionda cərəyan edən proseslər diqqət mərkəzində olacaq. Gürcü nazir, həmçinin Azərbaycan ilə Gürcüstan arasında Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının növbəti 10-cu iclasında iştirak edəcək.

**Səfərin ilk günündə**

Azərbaycan və Gürcüstan tarixi bağlara və qarşılıqlı maraqlara əsaslanan münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiblər. İki ölkə arasında siyasi dialoq yüksək dinamizmi ilə fərqlənir. Oxşar talelər yaşayan dost ölkələr beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edirlər və adətən bir-birinin mövqeyini dəstəkləyirlər. Yüksəksəviyyəli rəsmilərin səfərləri də intensiv hal alıb. Bu baxımdan Gürcüstanın xarici işlər nazirinin ölkəmizə səfərə gəlməsi də mühüm əhəmiyyət daşıyır. Səfərin ilk günündə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili ilə təkbətək və geniş tərkibdə görüşü olub. Bu barədə Azərbaycan XİN-in "X" hesabında məlumat paylaşılıb.

Görüşdə geniş gündəlik üzrə müzakirələr aparılıb. Verilən məlumata əsasən, Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının siyasi, təhlükəsizlik, iqtisadi, enerji, nəqliyyat-kommunikasiya, humanitar ölçüləri, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələlər, müzakirə edilib.

Ceyhun Bayramov gürcüstanlı həmkarını münaqişədən sonra regional yenidənqurma, minalardan təmizləmə və sülh səyləri, eləcə də davamlı sülh prosesinə qarşı mövcud problemlər barədə məlumatlandırıb.

**İki qonşu və dost ölkənin ümumi maraqları**

Maka Boçorişvilinin respublikamıza səfəri Cənubi Qafqazda həssas məqamların yaşandığı dövrə təsadüf edir. Məlumdur ki, bir sıra güc mərkəzləri hazırda açıq müstəviyə keçən Qlobal Şərq-Qlobal Qərb qarşıdurmasında öz maraqlarını həm də Cənubi Qafqaz üzərindən reallaşdırmağa çalışırlar. Bu kontekstdə...

Bax səh. 2




## Qızılın dəyəri rekord həddə çatıb

Bax səh. 7



## Qəzzada atəş kəsildi!

Bax səh. 6

# Azərbaycanın dayanıqlı iqtisadi artıma yönəlmiş islahatları və beynəlxalq arenada artan nüfuzu təqdirlə qarşılanır

## İlham Əliyev "Franklin Templeton" şirkətinin Baş icraçı direktoru və prezidenti Cenni Consonu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da aktivlərin idarə edilməsi üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "Franklin Templeton" şirkətinin Baş icraçı direktoru və prezidenti Cenni Consonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurları və beynəlxalq əməkdaşlığa verdiyi töhfələri vurğulayan Cenni Conson Azərbaycanın dayanıqlı iqtisadi artıma yönəlmiş islahatlarını və beynəlxalq arenada artan nüfuzunu təqdirlə qarşıladığını bildirdi. Qonaq bu çərçivədə "Franklin Templeton" şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə qarşılıqlı fayda əsasında uzunmüddətli tərəfdaşlıq yaratmaq məqsədilə ilkin addımların atıldığını və strateji istiqamətlərdə əməkdaşlığın daha da dərinləşdirilməsi imkanlarının araşdırıldığını dedi. 2024-cü ilin noyabrında COP29 çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən təşkil olunan tədbirlərdə iştirakı zamanı da həmin məsələlərə dair müzakirələr aparıldığını xatırladan Cenni Conson bu işbirliyinin hər iki tərəfin regional və qlobal məqsədlərinə uyğun olaraq yeni strateji perspektivlər açacağına və uzunmüddətli, səmərəli nəticələr əldə etməyə imkan yaradacağına inamını ifadə etdi.

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun dünyanın aparıcı maliyyə qurumları ilə uğurlu əməkdaşlıq təcrübəsinə toxunaraq, "Franklin Templeton" ilə tərəfdaşlığın strateji əhəmiyyətini qeyd etdi və bu istiqamətdə əlaqələrin daha da genişləndirilməsi üçün əlverişli mühitin mövcud olduğunu bildirdi.

Qeyd edək ki, 1947-ci ildə ABŞ-ın Nyu-York şəhərində təsis edilmiş "Franklin Templeton" şirkətinin 2024-cü ilin sentyabrına olan məlumatına əsasən idarəetməsində olan aktivlərin ümumi dəyəri 1,68 trilyon ABŞ dollarına bərabərdir. "Franklin Templeton" şirkətlər qrupuna səhmlər, istiqrazlar, alternativ investisiyalar və digər aktiv növlərinin idarə edilməsi üzrə ixtisaslaşmış bir sıra biznes qurumları daxildir.

# Şərqlə Qərb arasında etibarlı körpü...

## Çoxtərəfli diplomatiyada zəngin təcrübə

Müstəqil Azərbaycanın milli maraqlar üzərində qurulan və xoş mərama əsaslanan çoxvektorlu xarici siyasət kursu dinamik səciyyə daşıyır. Ölkəmiz həm regional, həm də qlobal səviyyədə əməkdaşlığın genişlənməsinə, təhlükəsizliyin təmin olunmasına, yaranan çağırışların birgə səylərlə qarşılanmasına davamlı töhfələr verir ki, bu da beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir. Qürurverici haldır ki, bu gün ölkəmiz dünyada milli maraqlarını qətiyyətlə qoruyan ləyaqətli dövlət kimi tanınır. Bu reallıq müxtəlif beynəlxalq tədbirlərdə, dövlətimizin başçısının iştirakı ilə baş tutan yüksəksəviyyəli görüşlərdə də açıq şəkildə etiraf olunur. Yeri gəlmişkən, Prezident İlham Əliyev yanvarın 15-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib. Həmin qəbulda da Azərbaycanın çoxtərəfli diplomatiyada zəngin təcrübəsinin olduğuna xüsusi diqqət çəkilib.

### Beynəlxalq təşkilatlarda uğurlu təmsilçilik

Azərbaycanın əlverişli coğrafi yerləşməsi elədir ki, buradan keçən nəqliyyat dəhlizləri Avropa ilə Asiyanı birləşdirir. Lakin ölkəmizin müstəsna önəmi yalnız coğrafi yerləşməsi ilə məhdudlaşmır. Azərbaycan həmçinin özünün multiregional siyasəti ilə Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynayır. Əlamətdar haldır ki, bu gün respublikamız həm geniş İslam coğrafiyasında, həm də Avropa İttifaqı (Aİ) məkanında yerləşən ölkələrlə sıx əməkdaşlıq edir. Ölkəmiz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Azərbaycan dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verir və bu, İslam coğrafiyasında yüksək qiymətləndirilir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev 2022-ci ildə Ərəb Dövlətləri Liqasının 31 Sammitinə fəxri qonaq qismində dəvət alan azsaylı dövlət başçılarından biri olub. Ötən il dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycanın yekdilliklə D-8 təşkilatının üzvü seçilməsi İslam dünyasında ölkəmizə göstərilən etimadın daha bir təzahürüdür.

İslam dünyasından kənarda da Azərbaycan və onun Liderinə belə yüksək səviyyədə rəğbət göstərilir. Prezident İlham Əliyev fəxri qonaq qismində dəvətləri həm ölkəmizin üzv olduğu, həm də üzv olmadığı çoxlu sayda beynəlxalq qurumlardan, o cümlədən də Avropa Siyasi Birliyindən alıb. Bu gün Azərbaycan Aİ-də təmsil olunan on ölkə ilə strateji tərəfdaşlıq münasibətlərinə malikdir və qoca qitənin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Ümumiyyətlə, qısa müstəqillik tarixində Azərbaycanın xarici siyasəti, o cümlədən də beynəlxalq təşkilatlarda təmsilçiliyi kifayət qədər uğurlu olub.

Şübhəsiz, 2011-ci il oktyabr ayının 24-də BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, Azərbaycanın 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında təmsil edəcək qeyri-daimi üzv seçilməsi və quruma 2012-ci ilin may və 2013-cü ilin oktyabr aylarında Sədrlik etməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunun zirvəsi sayıla bilər. Azərbaycan BMT TŞ-yə sədrlik müddətini uğurla həyata keçirdi. Azərbaycanın BMT-dən sonra ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərakatına uğurla sədrlik etməsi də diplomatiyamızın böyük uğurudur. Ölkəmizin beynəlxalq təsisata sədrliyi 2022-ci ildə bitməli idi. Ancaq Azərbaycanın səmərəli fəaliyyətinin yüksək dəyərləndirilməsinin əlaməti olaraq QH-na üzv dövlətlər respublikamızın sədrlik dövrünün daha bir il uzadılması ilə bağlı müraciət ünvanladılar. Azərbaycan isə bu etimada qarşılıq verərək müraciəti qəbul etdi. Bütövlükdə, QH-na sədrliyi dövründə Azərbaycanın prioritetlərinin əhatə dairəsi kifayət qədər geniş olub.



### AQEM çərçivəsində səmərəli əməkdaşlıq

Ölkəmizin fəal üzvü olduğu və işində aktiv iştirak etdiyi təsisatlardan biri də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədir (AQEM). Azərbaycanın xarici siyasət prinsipləri də AQEM-in sənədlərində əks olunmuş əsas istiqamətlərlə üst-üstə düşür. Müşavirənin fəaliyyətini tənzimləyən əsas sənədlərdə separatizm dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə olan təhdid kimi pislənilib, üzv dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsi, bundan irəli gələrək bir-birinin ərazilərində olan separatçı fəaliyyətləri dəstəkləməmək barədə öhdəlik əks olunub. Azərbaycan da beynəlxalq terrorizmə qarşı mübarizəyə töhfəsi ilə seçilir, hərbçilərimiz Əfqanıstanda, İraqda sülhməramlı missiyalarda iştirak ediblər. Bundan əlavə, bu gün ölkəmiz kiçik ada dövlətlərinə, eyni zamanda, Fransanın sümürmə siyasəti apardığı ölkələrə fəal dəstək göstərir. Bunu ölkəmizin ötən ilin noyabr ayında böyük uğurla ev sahibliyi etdiyi COP29 tədbiri bir daha təsdiqlədi. Ölkəmiz BMT-nin konfransında kritik iqlim çağırışları ilə üz-üzə qalan dövlətlərə dəstəyin, o cümlədən də maliyyə yardımının artırılmasının vacibliyinə diqqət çəkdi və buna nail oldu. Yeri gəlmişkən, qəbulda qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-un yüksək səviyyədə keçirildiyini, bu tədbirə hazırlıqla bağlı qısa müddət ərzində Azərbaycan tərəfindən böyük işlərin görüldüyünü və COP29 nəticəsində qlobal iqlim gündəliyi ilə əlaqədar çox vacib qərarların qəbul edildiyini vurğulayaraq bu münasibətlə təbriklərini çatdırıb.

Asiya məkanında təhlükəsizlik məsələlərinin müzakirə edildiyi önəmli beynəlxalq platforma olan AQEM-in hazırda 28 üzvü var (Azərbaycan, Türkiyə, Əfqanıstan, Bəhreyn, Kamboca, Çin, Misir, Hindistan, İran, İraq, İsrail, İordaniya, Qazaxıstan, Qırğızıstan, Küveyt, Monqolustan, Pakistan, Fələstin, Koreya Respublikası, Rusiya, Tacikistan, Tailand, BƏƏ, Özbəkistan, Vyetnam, Qətər, Banqladeş, Şri-Lanka). Daha 10 ölkə - ABŞ, Belarus, İndoneziya, Yaponiya, Malayziya, Laos, Filippin, Ukrayna, Səudiyyə Ərəbistanı, Türkmənistan, həmçinin BMT, ATƏT, Beynəlxalq Miqrasiya Təşkilatı, Ərəb Dövlətləri Liqası, Türk PA kimi beynəlxalq təşkilatlar AQEM-də müşahidəçi statusuna malikdirlər. AQEM-in inzibati orqanı Astana şəhərində yerləşən Katiblikdir.

Hazırda təşkilata sədrliyi ölkəmiz həyata keçirir. Qəbulda Baş katib Azərbaycan tərəfindən konseptual sənədin təqdim olunduğu və bu sənəddə təşkilatın gələcək inkişafı ilə bağlı, həmçinin ölkələr arasında əməkdaşlığın və etimadın gücləndirilməsi üçün geniş sahəni əhatə edən təkliflərin əksini tapdığını bildirib. Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin təşkilata sədrliyinin uğurla davam etdirildiyini deyərək, üzv dövlətlər arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi, təşkilatın institusional inkişafı və təşkilat çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərin bundan sonra da göstəriləcəyini qeyd edib. Dövlətimizin başçısı Azərbaycan tərəfinin bu təşkilata sədrliyə çox məsuliyyətlə yanaşdığını bildirərək, ölkəmizin öz növbəsində bu formatın daha da möhkəmlənməsi işinə töhfəsini verəcəyinə əmin olduğunu deyib.

*Mübariz FEYİZLİ*

# Geniş gündəlik üzrə mühüm müzakirələr

## Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili Azərbaycana səfərə gəlib

Dünəndən Gürcüstanın xarici işlər naziri Maka Boçorişvilinin ölkəmizə səfəri başlayıb. İki gün davam edəcək səfər çərçivəsində bir sıra görüşlərin keçirilməsi nəzərdə tutulur. Bu görüşlərdə Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığın inkişaf perspektivləri, dünyada və regionda cərəyan edən proseslər diqqət mərkəzində olacaq. Gürcü nazir, həmçinin Azərbaycan ilə Gürcüstan arasında Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının növbəti 10-cu iclasında iştirak edəcək.

### Səfərin ilk günündə

Azərbaycan və Gürcüstan tarixi bağlara və qarşılıqlı maraqlara əsaslanan münasibətlərini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiblər. İki ölkə arasında siyasi dialoq yüksək dinamizmi ilə fərqlənir. Oxşar talelər yaşayan dost ölkələr beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edirlər və adətən bir-birinin mövqeyini dəstəkləyirlər. Yüksəksəviyyəli rəsmilərin səfərləri də intensiv hal alıb. Bu baxımdan Gürcüstanın xarici işər nazirinin ölkəmizə səfərə gəlməsi də mühüm əhəmiyyət daşıyır. Səfərin ilk günündə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili ilə təkbətək və geniş tərkibdə görüşü olub. Bu barədə Azərbaycan XİN-in "X" hesabında məlumat paylaşılıb.

Görüşdə geniş gündəlik üzrə müzakirələr aparılıb. Verilən məlumata əsasən, Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının siyasi, təhlükəsizlik, iqtisadi, enerji, nəqliyyat-kommunikasiya, humanitar ölçüləri, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələlər müzakirə edilib.

Ceyhun Bayramov gürcüstanlı həmkarını münaqişədən sonra regional yenidənqurma, minalardan təmizləmə və sülh səyləri, eləcə də davamlı sülh prosesinə qarşı mövcud problemlər barədə məlumatlandırıb.

### İki qonşu və dost ölkənin ümumi maraqları

Maka Boçorişvilinin respublikamıza səfəri Cənubi Qafqazda həssas məqamların yaşandığı dövrə təsadüf edir. Məlumdur ki, bir sıra güc mərkəzləri hazırda açıq müstəviyə keçən Qlobal Şərq-Qlobal Qərb qarşıdurmasında öz maraqlarını həm də Cənubi Qafqaz üzərindən reallaşdırmağa çalışırlar. Bu kontekstdə Fransanın, Bayden administrasiyasının canfəşanlığını xüsusi qeyd edə bilərik. Kollektiv Qərb regionda Rusiyanın maraqlarına zərbə vurmaq və öz mövcudluğunu genişlənirmək istəyir. Bu məkrli planda fürsətcil dövlət olan Ermənistan yer alır. Məhz rəsmi İrəvanın razılığı əsasında bu ölkədə Avropa İttifaqının sözdə mülki adandırılan, əslində isə hərbiləşdirilmiş missiyası yerləşdirilib. "Binokl diplomatiyası" ilə məşhurlaşan həmin missiyanın fəaliyyət sferasına həmçinin qonşu dövlətlər barədə kəşfiyyat məlumatlarının toplanması daxildir. Hazırda Azərbaycanın və digər region ölkələrinin razılığı olmadan sözügedən missiyanın Ermənistanda qalma müddətinin uzadılması barədə müzakirələr aparılır və rəsmi İrəvanın buna icazə verəcəyi şübhəsizdir. Son olaraq Ermənistan bu günlərdə Bayden administrasiyası ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Həmin sənəddə regional təhlükəsizliyə təhdidlər yaradan bir sıra müddəalar yer alıb.

Azərbaycan və Gürcüstan isə milli maraqlardan, suverenlik prinsiplərindən çıxış etməklə kollektiv Qərbin regiona nüfuz etmək siyasətinə qarşı çıxış edirlər. Azərbaycan ən yüksək səviyyədə dəfələrlə bəyan edib ki, güc mərkəzlərinin qonşu dövlətlərə qarşı planlarında iştirak etməyəcək, ölkə ərazisindən plasdarm kimi istifadə olunmasına imkan verməyəcək. Oxşar mövqeni həmçinin dost Gürcüstan da bölüşür. Bu ölkə də regional əməkdaşlıq və sabitlik mövqeyindən çıxış edir. Rəsmi Tbilisinin ötən il milli maraqları əsas götürməklə iki mühüm qanun qəbul etməsinin nəticəsi olaraq bu ölkə də kollektiv Qərbin "qara siyahısı"na düşüb.

Beləliklə, aydın olur ki, indiki həssas dönəmdə iki dost ölkənin regional və qlobal məsələlərlə bağlı müzakirələr aparmalarına ciddi ehtiyac var. Hər iki nazir görüşlərdə və mətbuata verdikləri bəyanatlarda önəmli fikirlər səsləndiriblər. "Ermənistandakı revanşist meyillər Azərbaycan üçün narahatlıq mənbəyidir". Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov yanvarın 16-da gürcüstanlı həmkarı Maka Boçorişvili ilə Bakıda keçirilən birgə mətbuat konfransında deyib. "Cənubi Qafqazdakı təhlükəsizlik mühiti, Ermənistan-Azərbaycan postmünaqişə məsələsi də görüşün müzakirə mövzusu olub. Azərbaycan-Gürcüstan münasibətlərini səciyyələndirən amillərdən biri də bir-birimizin ərazi bütövlüyünü dəstəkləməyimizdir. Ermənistanın Azərbaycana münasibətində isə biz bunu deyə bilmərik", - deyə XİN başçısı vurğulayıb.

C.Bayramov əlavə edib ki, Azərbaycan hərbi güclə beynəlxalq hüququn tələblərini icra etmək məcburiyyətində qalıb: "Bütün bunlara baxmayaraq, Azərbaycan Ermənistana sülh müqaviləsi üzərində işləməyi təklif edib. Son 4 ildə sülh sazişi üzrə çox böyük irəliləyiş əldə olunub, delimitasiya üzrə ilkin müsbət nəticələr əldə olunub. Ancaq hələ də Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları qalır".

Öz növbəsində M.Boçorişvili bildirib ki, azərbaycanlı həmkarı ilə görüşdə iki ölkə arasında bütün istiqamətlər üzrə münasibətlərin intensivləşdirilməsi məsələləri, həmçinin Cənubi Qafqazdakı vəziyyət müzakirə olunub.




### Geniş əhatə dairəsinə malik iqtisadi əməkdaşlıq

Azərbaycanla Gürcüstan arasında iqtisadi əməkdaşlıq geniş əhatə dairəsinə malikdir. İki dost ölkə iqtisadi, ticari, enerji, nəqliyyat və logistika sahələrində sıx əməkdaşlıq edirlər və Avrasiya üçün mühüm önəm daşıyan birgə layihələr reallaşdırırlar. Azərbaycanla Gürcüstan arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiya 2004-cü ildən etibarən fəaliyyət göstərir. Komissiyanın mütəmadi olaraq iclasları keçirilir. Bu dəfə komissiya Bakıda 10-cu yubiley iclasına toplaşacaq. Azərbaycanda 815 Gürcüstan investisiyalı kommersiya qurumu qeydiyyatdadır, onlardan 533-nün fəaliyyəti aktivdir. Ümumilikdə, Gürcüstandan Azərbaycana 279 milyon, Azərbaycandan Gürcüstana isə 3,6 milyard ABŞ dolları məbləğində investisiya qoyulub. İki ölkə arasında ticarət dövriyyəsi 2024-cü ildə 1 milyard dollara çatıb. Azərbaycan Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biridir və ilk beşlikdə yer alır.

Gələcək əməkdaşlıq perspektivləri də kifayət qədər genişdir. Maka Boçorişvili mətbuat konfransında bildirib ki, Gürcüstan üçün Azərbaycanla strateji tərəfdaşlıq çox vacibdir. "Ölkələrimiz arasında möhkəm strateji tərəfdaşlığın arxasında dərin tarix dayanır. Biz sizinlə tərəfdaşlığı yüksək qiymətləndiririk", - deyə o bildirib. Gürcü nazirin sözlərinə görə, XİN başçısı qismində ilk səfərini məhz Azərbaycana etməsi strateji tərəfdaşlığın sübutudur.

Mətbuat konfransında birgə reallaşdırılan uğurlu layihələrdən bəhs edən Ceyhun Bayramov bildirib ki, Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniyanın birgə həyata keçirdiyi "yaşıl enerji" dəhlizi layihəsinə qoşulmaq istəyən yeni ölkələr var. XİN başçısı vurğulayıb ki, daha geniş coğrafiyanın geoiqtisadi və enerji coğrafiyasının dəyişməsində Azərbaycan və Gürcüstan böyük rol oynayıb: "Bakı-Tbilisi-Qarsın yükdaşıma qabiliyyətinin 1 milyondan 5 milyon tona artırılması onun rəqabət qabiliyyətinin artırılmasında böyük əhəmiyyət daşıyır. Həmçinin hazırda icra səviyyəsində olan bir sıra layihələr də var. Onlar sırasında 2022-ci ildə icrasına başlanan və potensial qlobal layihə olan yeni yaşıl enerji dəhlizinin formalaşması böyük rol oynayır. Onun ilkin icraçıları sırasında Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya yer alır".

Ceyhun Bayramov vurğulayıb ki, Gürcüstan şirkətləri işğaldan azad edilən ərazilərdəki investisiya imkanlarından da faydalana bilərlər. XİN başçısı vurğulayıb ki, görüş zamanı həmin ərazilərin potensialı barədə gürcüstanlı həmkarına ətraflı məlumat verilib.

*.MÜBARİZ*

# Mono-etnik siyasətə son!

## Məğlub Ermənistan tərəfindən aparılan təbliğat sülhə və etimad mühitinin yaradılmasına xidmət etmir

Məğlub Ermənistanın həyata keçirdiyi siyasətdən o qənaət hasil olur ki, bu ölkə 44 günlük müharibənin və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticələrindən öz dərsini almayıb. Başda N.Paşinyan olmaqla iqtidar komandasının təmsilçilərinin, ayrı-ayrı dövlət qurumlarının verdikləri absurd bəyanatlar heç bir halda xoş mərama əsaslanmır və postmüharibə dönəmində qalib Azərbaycanın təşəbbüsü ilə başlayan sülhyaratma prosesini əngəlləməyə xidmət edir. Xüsusilə də Ermənistanın hazırkı Xarici İşlər Nazirliyi öz sələflərinin təcrübəsini davam etdirərək, uydurma açıqlamaların verilməsi ilə məşğuldur. Ermənistan XİN-in 15 yanvar 2025-ci il tarixli bəyanatı da bu qəbildəndir. Sözügedən bəyanatda guya 1990-cı ilin yanvarında Bakıda ermənilərə qarşı qırğının törədilməsi ilə bağlı əsassız iddialar yer alıb.

Həmişə ədalət mövqeyindən çıxış edən Azərbaycan tərəfindən həmin bəyanata cavab özünü çox gözlətməyib. Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə bəyanatla bağlı şərh verib. Eyni zamanda, Qərbi Azərbaycan İcması (QAİ) əsassız və böhtan dolu açıqlamalarla əlaqədar sənəd yayıb.



### Azərbaycana qarşı sistematik etnik nifrət və dözümsüzlük siyasəti

Qalib Azərbaycanın yaratdığı yeni reallıqlar onilliklər ərzində müharibə risklərindən əziyyət çəkən region üçün sülhü heç vaxt olmadığı qədər yaxın edib. Regionun gələcəyi naminə mövcud reallıqlar dəyərləndirilməli və sülh üçün yaranan imkanlardan maksimum dərəcədə istifadə olunmalıdır. Bunun üçün etimad mühitinin yaradılması çox vacibdir. Ancaq Ermənistanın saxta təbliğatı heç bir halda sülhə xidmət etmir. Ayxan Hacızadə bildirib ki, Ermənistan Xarici İşlər Nazirliyinin guya 1990-cı ilin yanvarında Bakıda ermənilərə qarşı qırğının törədilməsi ilə bağlı əsassız bəyanatı bu ölkənin Azərbaycana qarşı sistematik etnik nifrət və dözümsüzlük siyasətinin hələ də davam etdirildiyini göstərir.

Hər kəsə bəllidir ki, etnik təmizləmə və kütləvi qırğın siyasəti məhz Ermənistana və ermənilərə xas xüsusiyyətdir. Ermənilərin son iki yüz il ərzində kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması tarixi faktdır. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib, 2000-dən çox toponimin adları dəyişdirilib. Yalnız 1948-1953-cü illər ərzində 150 minə yaxın azərbaycanlı indiki Ermənistan ərazisində öz tarixi torpaqlarından kütləvi surətdə və zorakılıqla deportasiya olunub. Bununla yanaşı, 1987-1991-ci illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından növbəti deportasiyası baş verib, nəticədə 250 mindən artıq azərbaycanlı Ermənistandan qovulub. Bütün bunları sübut edən tarixi və hüquqi sənədlər mövcuddur. Ayxan Hacızadənin bildirdiyi kimi, qeyd olunan faktlar Ermənistan tərəfinə yaxşı məlumdur. “Ermənistan XİN bu kimi uydurma təbliğat xarakterli məlumatlar yaymaqla tarixən Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi soyqırımı, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini, 30 ilə yaxın müddət ərzində bir milyondan çox azərbaycanlının fundamental hüquqlarını kobudcasına pozduqlarını gizlətmək məqsədini güdür”, - deyə Azərbaycan XİN-in rəsmisi vurğulayıb.

Ermənilər saxta təbliğatlarında həmçinin uydurma “Sumqayıt qırğınları”na da istinad edirlər. Aparılan istintaq Sumqayıt hadisələrinin təfərrüatlarını tam şəkildə üzə çıxarıb. Bununla bağlı internetdə hər kəsə açıq olan geniş məlumatlar var. Həmin hadisələr Ermənistan ərazisindən azərbaycanlıların deportasiyası və kütləvi şəkildə qətlə yetirilməsinə haqq qazandırmaq üçün ermənilərin özlərinin düşünüb hazırladıqları və Eduard Qriqoryan vasitəsilə icra olunan məkrli bir plan idi. “Bakı nefti və Azərbaycanın zənginliklərinin hesabına varlanan və qazandıqları vəsaitləri azərbaycanlıların qırğınına və tarixi abidələrinin məhvinə xərcləyən ermənilərin kompensasiya almaq hüququnun olduğunun iddia olunması isə absurd təfəkkürdən xəbər verir”, - deyə Ayxan Hacızadə bildirib.




### Məğlub Ermənistan İkinci Qarabağ müharibəsindən əvvəlki ritorikasını təkrarlayır

Qərbi Azərbaycan Icmasının yaydığı sənəddə bildirildiyi kimi, Ermənistan tərəfinin verdiyi bəyanatın tonu bu ölkənin İkinci Qarabağ müharibəsindən əvvəlki ritorikasını xatırladır. QAİ diqqəti hakimiyyət illəri Azərbaycan torpaqlarının işğalı və azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin böyük hissəsinin aparıldığı dövrə təsadüf edən Levon Ter-Petrosyanın prezident qismində 1993-cü ildə etdiyi və bu günlərdə mətbuatda yayılan məlum çıxışına diqqət çəkib. Həmin çıxışda səsləndirilən fikirər azərbaycanlılara qarşı etnik təmizləmənin Ermənistanın dövlət siyasəti olduğunu bir daha təsdiq edir. L.Ter-Petrosyan çıxışında Azərbaycan SSR-dən ermənilərin köçünün məhz Ermənistanın özü tərəfindən təşkil edildiyini də bildirib. Sitat: “Hərəkat vaxtında başlamasaydı, bu gün Azərbaycanda 500 min erməni qalacaqdı. Onlar fiziki cəhətdən məhv edilməsələr belə, bu, Ermənistanı diz çökdürmək üçün ən güclü rıçaq olardı. Onların əhəmiyyətli bir hissəsi, 300 mindən çox insan Ermənistanda sığınacaq tapdı. Bu da milli problem idi, hərəkatımız sayəsində həll olunan böyük miqyaslı problem”.

Əlavə şərhə ehtiyac yoxdur. Ermənistanın birinci prezidenti indiyədək gizli saxlanılan çıxışında məkrli planın detallarını açıq şəkildə etiraf edib. “Ermənistan hökuməti böhtan və nifrət dolu bəyanatlar vermək əvəzinə, irqçiliyinə və mono-etnik siyasətinə son verməli, Qərbi azərbaycanlıların qayıdışına şərait yaradaraq, oradakı multi-etnik mühiti bərpa etməlidir”, - deyə QAİ Ermənistan iqtidarına çağırış edib.

*Mübariz ABDULLAYEV*

# Cənubi Qafqaz - Mərkəzi Asiya vahid geosiyasi məkan rolunda...

## ABŞ-ın yeni administrasiyası Mərkəzi Asiya və Cənubi Qafqaza münasibətini yeni çalarlarla formalaşdırmalıdır

Sirr deyil ki, 2020-ci il Vətən müharibəsi tək Cənubi Qafqazın deyil, ümumilikdə böyük bir coğrafiyanın həyatında yeni mərhələ başlatdı. Məhz müharibənin nəticələrinin ortaya çıxardığı mənzərə Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya xətti üzrə yeni iqtisadi-siyasi gündəm formalaşdırdı. Artıq bölgə özünün geocoğrafi və geoiqtisadi üstünlüklərini dividendə çevirir, proseslərdə yeni siyasi aktor qismində iştirak edir. Yeni mərhələ Azərbaycanın təşəbbüsü ilə möhkəmlənən Şərq-Qərb münasibətlər sistemi üzrə cəlbedicilik yaradıb. XXI əsrin ən mühüm çağırışı olan “əlverişli ticari yol” tematikası Şərq ilə Qərbin qovşağında yerləşən Azərbaycanın geocoğrafi imkanlarını və əhəmiyyətini yüksək səviyyədə aktuallaşdırır. Şərq-Qərb, Şimal-Cənub seqmentləri üzrə yüksək rentabelli infrastruktura malik olması Azərbaycanın iqtisadi potensialını parlaq şəkildə ortaya qoyur. Paralel olaraq bu iqtisadi göstəricilərlə yanaşı, müharibədə əldə olunan qalibiyyət və yeni siyasi reallıqlar həm də ölkəmizin bölgəsəl siyasi liderliyini möhkəmləndirir.

### Bayden administrasiyasının böyük səhvi...

Göründüyü kimi, həm Şərqin, həm də Qərbin diqqət mərkəzində olan və Azərbaycanın yaratdığı iqtsadi-siyasi reallıqlar regionları bir-biri ilə yaxınlaşdırmaqla kifayətlənmir - təhlükəsizlik seqmentinin ən yüksək səviyyədə təminatını da reallaşdırır, gələcək əlaqələrin inkişafını da sürətləndirir. Azərbaycanın beynəlxalq hüquqa və ədalətə söykənən siyasi qərarları növbəti mərhələdə yeni nizamın gündəminin müəyyənləşməsinə əhəmiyyətli təsir göstərir. Bu isə, ümumilikdə regiona münasibətdə yeni ştrixlər formalaşdırır.

Məsələn, Azərbaycana qarşı qeyri-adekvat münasibət göstərən Bayden administrasiyasının addımları artıq uzun müddət idi ki, ABŞ-ın bölgəsəl maraqlarını təhlükə qarşısına qoyurdu - işğalçı Ermənistanın dəstəklənməsi Bayden administrasiyası üçün həm də regional əməkdaşlıq müstəvisində aşkar çətinliklər yaradırdı. Bunun səbəbləri var:

- ABŞ-ın bütün mənalarda Mərkəzi Asiya ilə əlaqələri Azərbaycan üzərindən uzlaşdırılmalıdır;

- Bölgənin aparıcı dövlətinə qarşı bu kimi münasibət Bayden administrasiyasının nəinki regionda güclənməsinə, ümumiyyətlə arxa plana keçirilməsinə yol açırdı;

- Bayden administrasiyası Ermənistanı dəstəkləməklə həm də regionda təhlükəsizlik arxitekturasının tam şəkildə bərqərar olmasına mane olurdu.

Bütövlükdə isə, bölgəyə nəzərən Ermənistan - ABŞ münasibətlərinin ön plana çıxarılması Bayden administrasiyasının bizim regiona səhv istiqamət üzrə yaxınlaşdığının real göstəricisi idi.

Artıq ABŞ-da yeni Prezident seçilib və Donald Trampın birinci prezidentliyi dövrünü nəzərə alsaq, məsələlərə yanaşmada daha praqmatik, işgüzar münasibətlərə üstünlük verdiyini görmüş olaraq. Bu nöqteyi-nəzərdən yeni dövrdə ABŞ ilə Azərbaycan arasında əlaqələrdə yeni çalarların yaranmasına ümid böyükdür.




Yeri gəlmişkən, Xəzər Siyasət Mərkəzi (Caspian Policy Center) ABŞ-ın növbəti administrasiyasının Mərkəzi Asiya və Qafqaz ölkələri ilə uğurlu işləyə biləcəyi istiqamətləri əks etdirən yeni strategiya hazırlayıb. Mərkəzin aparıcı eksperti Erik Rudenşoldun

### Mərkəzi Asiya və Qafqaz ölkələrinə münasibətdə yeni strategiya...

müəllifi olduğu “Transxəzər trayektoriyası: Mərkəzi Asiya və Qafqaz üçün yeni ABŞ strategiyası” adlı sənədin ABŞ-ın paytaxtı Vaşinqtonda təqdimatı keçirilib. Açılış nitqi ilə çıxış edən Xəzər Siyasət Mərkəzinin prezidenti Əfqan Nifti son bir neçə ildə Mərkəzi Asiya və Qafqaz regionunun diqqət mərkəzində olduğunu bildirib. Onun sözlərinə görə, digər dövrlərlə müqayisədə indi regiona daha çox maraq var və bu maraq getdikcə artır. Xəzər regionu qlobal oyunçularla münasibətlərini şaxələndirmək istiqamətində fəal addımlar atır və bu, regiona hərtərəfli yanaşma tələb edir. Əfqan Nifti Cənubi Qafqaz və Mərkəzi Asiyanın bir-birinə bağlı olduğunu və ABŞ üçün hər iki regionu əhatə edən strategiyaya ehtiyac olduğunu qeyd edib.

Strategiyanın müəllifi Erik Rudenşold bildirib ki, yeni seçilmiş prezident Donald Tramp Xəzər regionu üçün yad deyil və ilk prezidentliyi müddətində Mərkəzi Asiyaya diqqət yetirib. Xəzərdə artan regional əməkdaşlığı şərh edən ekspert bildirib ki, dənizə çıxışı olmayan Mərkəzi Asiya öz infrastruktur məhdudiyyətlərindən çıxmağa başlayıb, Azərbaycan və Gürcüstan vasitəsilə sürətlə Qərbə genişlənən və inkişaf edən ticarət dəhlizinin hissəsinə çevrilib.

Mərkəzin eksperti Riçard Hoqlandın moderatorluğu ilə keçirilən panel müzakirələrində ekspertlər Birləşmiş Ştatlar üçün Qafqaz və Mərkəzi Asiya regionlarında imkanlar yaradan sahələr barədə danışıblar. Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin (CSIS) baş vitse-prezidenti Daniel Rand regionun mineral ehtiyatlarının əhəmiyyətindən danışıb. O, həmçinin Orta Dəhlizin vacib alternativ ticarət marşrutu kimi artan əhəmiyyətini və Azərbaycanın əsas tranzit nöqtəsi kimi rolunu vurğulayıb.

“Hudson” İnstitutunun aparıcı eksperti Luk Koffi ABŞ-ın Mərkəzi Asiya və Qafqaz regionları üzrə siyasətində diqqət etməli olduğu əsas məqamları qeyd edib. O bildirib ki, ABŞ regionda iştirakını artırmalıdır və region ölkələrinə regional və beynəlxalq münasibətləri balanslaşdırmaqda kömək etməlidir.

### Azərbaycanın yeri və imkanları...

Yeni nizamın çağırışlarına uğurla cavab verən Azərbaycan özünün çoxvektorlu siyasətini əməkdaşlıq və tərəfdaşlıq prinsipləri üzərindən qurur. Aİ ölkələrinin enerji təhlükəsizliyinin təminatında oynadığımız rol, ABŞ ilə bərabərtərəfli və milli maraqlara əsaslanan münasibətlərə əsaslanmağımız, Rusiya ilə iqtisadi imkanların daha da genişlənməsinə xidmət edən yanaşmamız, Çin ilə mövcud əlaqələrin daha da böyüdülməsi istiqamətində addımlarımız, strateji tərəfdaşlıq müstəvisinin formalaşdırılmasına yönəlik xətt qlobal imkanların artırılması üçün hədəflənən konturlarımızdır. Eyni zamanda, Mərkəzi Asiyanın Qərbə çıxışı üçün pəncərə rolunun oynanılmasına, ərəb dünyasının istər yerləşdiyimiz region, istərsə də Türk dünyası ilə inteqrasiyasının daha da gücləndirməsi və ən nəhayət Cənubi Qafqazın beynəlxalq münasibətlər sistemində yerinin formalaşdırılmasına yönəlik addımlarımız müsbət tendensiya yaradır - artıq əlaqələr bu və ya digər şəkildə müəyyən çərçivədə məhdudlaşmır, tam əksinə əlaqələr çoxtərəfli, şaxələndiriliş və genişləndirilmiş şəkildə sürət qazanır. Transxəzər imkanları Azərbaycanın timsalında Cənubi Qafqaz - Mərkəzi Asiya vahid geosiyasi məkan anlayışını formalaşdırıb ki, ABŞ-ın yeni administrasiyasını bünü mütləq şəkildə nəzərə almalıdır.

*P.İSMAYILOV*

# YAP Mərkəzi Aparatında müşavirə keçirilib





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, nəzərdə tutulan bütün tədbirlərin vaxtında və mütəşəkkil qaydada həyata keçirildiyi bildirilib, qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla seçkiqabağı təşviqat kampaniyasının uğurla davam etdirildiyi və partiya fəallarının bu prosesə aktiv cəlb olunduğu qeyd edilib, seçki prosesinin sonrakı mərhələsində qarşıda duran vəzifələrin icrasına dair fikir mübadiləsi aparılaraq müvafiq tapşırıq və tövsiyələr verilib.

Azərbaycanın demokratik dəyərlərə sadiq və zəngin seçki təcrübəsinə malik olduğu vurğulanaraq bələdiyyə seçkilərinin azad, şəffaf, ədalətli keçiriləcəyinə və Yeni Azərbaycan Partiyasının xalqın etimadı əsasında daha bir qələbəyə imza atacağına əminlik ifadə olunub.

## "Partiyamızın fəaliyyəti milli maraqlara əsaslanır"





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qax rayonu, Qax bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Qax rayon təşkilatının sədri Natiq Allahverdiyev Yeni Azərbaycan Partiyasının fəaliyyətinin milli maraqlara əsaslandığını bildirib. O, YAP-ın ölkəmizdə keçirilən bütün seçkilərdə möhtəşəm uğurlara imza atdığını və xalqın dəstəyi ilə növbəti inamlı qələbə qazanmaq əzmində olduğunu bildirib.

N.Allahverdiyev qarşıdan gələn bələdiyyə seçkilərinin önəmindən danışıb, YAP-ın seçki proqramı barədə seçicilərə ətraflı məlumat verib.

Bələdiyyə üzvlüyünə namizədlər Eyvaz Orucov və Elmir Həşimli YAP-ın seçki proqramında nəzərdə tutulan hədəflərin gerçəkləşdirilməsinin yerli özünüidarəetməni təkmilləşdirəcəyini vurğulayaraq seçiciləri partiyanın namizədlərini dəstəkləməyə çağırıblar.

Seçicilər Eldəniz Şabanov, Əfqan Babayev və digərləri bu zamana qədər xalqın etimadını layiqincə doğruldan və ölkəmizə mühüm nailiyyətlər qazandıran Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədlərə səs verəcəklərini vurğulayıblar.

## Ümumxalq etimadı YAP-ın ən böyük sərvətidir





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Saatlı rayonu, Qıraqlı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Saatlı rayon təşkilatının sədri Elşən Əzizov bildirib ki, hər bir dönəmin özünəməxsus çağırışları var və Yeni Azərbaycan Partiyası öz fəaliyyətini müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirir. "Ümumxalq etimadı YAP-ın ən böyük sərvətidir", - deyən E.Əzizov hər zaman siyasi proseslərin önündə gedən YAP-ın növbəti bələdiyyə seçkilərinə də yüksək səviyyədə hazırlaşdığını bildirib.

Seçki qərargahının üzvləri Sevinc Gülüşova və Sədafər Hüseynov, bələdiyyə üzvlüyünə namizəd Tahir Ağayev bələdiyyələrin qarşısında dayanan vəzifələrdən danışıb, YAP-ın seçki proqramında əksini tapan hədəfləri diqqətə çatdırıblar. Onlar görüş iştirakçılarını seçkilərdə fəal iştirak edərək Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

## "Xalqımız qazanılan uğurları yüksək qiymətləndirir"





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Yevlax rayonu, Yevlax, Xaldan və Aşağı Bucaq bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.

YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev xalqımızın Prezident İlham Əliyevin siyasətini birmənalı olaraq dəstəklədiyini bildirib: "Azərbaycan cəmiyyəti bütün sahələrdə qazanılan uğurları yüksək qiymətləndirir, qarşıda duran məqsədlərin müvəffəqiyyətlə reallaşdırılacağına inanır".

Ölkəmizdə həyata keçirilən islahatların önəmini vurğulayan R.Əliyev yerli məsələlərin effektiv həlli baxımından bələdiyyələrin fəaliyyətinin əhəmiyyətinə diqqəti cəlb edərək YAP-ın bu istiqamətdə başlıca hədəflərindən bəhs edib.

Seçki qərargahının üzvləri Tofiq Həsənov, Vahid Quliyev, bələdiyyə üzvlüyünə namizədlər Aytac Əzizova, Nərgiz Əhmədova, Fatma Qasımova, Səxavət Kərimov, İsmayıl Hüseynli, Nicat Haqverdiyev və İlkin Məmmədov partiyanın seçki proqramı haqqında ətraflı məlumat verib, seçicilərin YAP tərəfindən irəli sürülən namizədlərə etimad göstərəcəklərinə inamlarını ifadə ediblər.

## Davamlı inkişaf naminə...






Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Quba rayonu, Quba bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova qeyd edib ki, müasir dövlətçilik tariximizin möhtəşəm nailiyyətləri Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsi ilə bağlıdır. "Prezident İlham Əliyevin rəhbərliyi ilə dövrün çağırışlarına cavab verən çoxşaxəli islahatların həyata keçirilməsi davamlı inkişafı təmin edən mühüm amildir. Bu, eyni zamanda, hər bir vətəndaşın rifahının yüksəlməsinə zəmin yaradır", - deyən F.Hüseynova ölkəmizdə bələdiyyə institutunun təkmilləşdirilməsinin diqqət mərkəzində olduğunu bildirib.

Bələdiyyə üzvlüyünə namizədlər Allahverdi Xudaverdiyev, Eynulla Camalov və Anar Murtuzov bələdiyyələrin qarşısında önəmli vəzifələrin dayandığını vurğulayaraq yeni hədəflərin uğurla reallaşdırılması üçün seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# Ardıcıl islahatlar müsbət nəticələr verir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Xəzər rayon təşkilatı sədrinin müavini Şəfayət Nənəcanov qeyd edib ki, ölkə həyatının bütün sahələrində həyata keçirilən islahatların cəmiyyət tərəfindən təqdirlə qarşılanması Prezident İlham Əliyevin güclü dövlət konsepsiyasının uğurla reallaşdığını təsdiqləyir. Onun sözlərinə görə, bu, ictimai etimada əsaslanan vətəndaş-dövlət münasibətlərinin inkişafı baxımından xüsusi önəm daşıyır: "Bu gün ardıcıl olaraq davam etdirilən genişmiqyaslı islahatlar bütün sahələrin inkişafına xidmət etməklə yanaşı, yerli özünüidarəetmənin təkmilləşməsinə də töhfələr verir".





Təşviqat qrupunun üzvləri Altay Mansurov, Müşfiq Əliyev, bələdiyyə üzvlüyünə namizəd Bəxtiyar Babayev bələdiyyə seçkilərinin əhəmiyyətini diqqətə çatdırıblar. Çıxışlarda YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verilib və seçicilərə partiyanın namizədlərini dəstəkləmək çağırışı edilib.

# Yeni Azərbaycan Partiyası bütün hədəfləri gerçəkləşdirmək əzmindədir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Biləsuvar rayonu, Biləsuvar bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

Təşviqat qrupunun üzvü Samir Ağayev və bələdiyyə üzvlüyünə namizəd İlqar Abasov YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, sonuncu bələdiyyə seçkilərindən ötən dövr ərzində ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı təmin olunub, əhalinin rifahı əhəmiyyətli şəkildə yüksəlib. Qeyd edilib ki, ölkəmizdə yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində mühüm addımlar atılıb və bu sahədə qazanılmış müsbət təcrübənin yayılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. "Bununla bərabər, yerli özünüidarəetmənin təkmilləşdirilməsi naminə qarşıda mühüm vəzifələr durur. Yeni Azərbaycan Partiyasının seçki proqramında bu məsələlərlə əlaqədar əsas hədəflər öz əksini tapıb", - deyə vurğulanıb.





Seçicilər Mirnəsib Kazımov, Şahverdi Bayramov və digərləri Prezident İlham Əliyevin vətəndaşların rifahı və mənafeyinə xidmət edən siyasətindən məmnunluq hissi ilə bəhs edib, daha qüdrətli Azərbaycan naminə partiyanın namizədlərinə səs verəcəklərini qeyd ediblər. "Yeni Azərbaycan Partiyası bütün hədəfləri gerçəkləşdirmək əzmindədir", - deyə bildirilib.

# YAP yenə də qalib olacaq



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Suraxanı rayonu, Bülbülə bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Suraxanı rayon təşkilatı sədrinin müavini Salman Əbdülov qeyd edib ki, Yeni Azərbaycan Partiyası ölkəmizdə ictimai-siyasi sabitliyin, iqtisadi inkişafın təmin olunması, dövlətçiliyin möhkəmləndirilməsi, milli maraqların qorunması, respublikanın beynəlxalq mövqeyinin gücləndirilməsi və digər istiqamətlərdə mühüm işlər görüb və tarixi nailiyyətlərə imza atıb: "Eyni zamanda, ölkədə keçirilən seçkilərə diqqət yetirsək, ümumxalq və qələbələr partiyası olan YAP-ın zəngin seçki təcrübəsinə malik olduğunu qeyd edə bilərik. Şübhə yoxdur ki, partiyamız qarşıdan gələn bələdiyyə seçkilərində də xalqın etimadı əsasında qalib olacaq".



Bələdiyyə üzvlüyünə namizədlər Natiq Həsənov, Günay Bağrova-Babazədə, Nəsib İsmayılov, Bahar Mehdiyeva, Hökümə Muxtarova və digərləri seçkilər nəticəsində yeni formalaşacaq bələdiyyələrdə təmsil olunacaq YAP üzvlərinin bu sahədə müəyyən olunan hədəflərin gerçəkləşdirilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərəcəklərini bildirərək seçiciləri partiyanın namizədlərinə səs verməyə çağırıblar.



# Yeni dövr yeni nailiyyətlərlə zəngin olacaq



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şirvan şəhəri, Şirvan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov Yeni Azərbaycan Partiyasının zəngin və şərəfli inkişaf yolu keçdiyini vurğulayıb. O qeyd edib ki, qalib xalqın Zəfər partiyası olan YAP bundan sonra da milli məqsədləri uğurla reallaşdırmaqla ölkəmizin tərəqqisinə və qüdrətinin artmasına müstəsna töhfələr verəcək. "Yeni dövr yeni nailiyyətlərlə zəngin olacaq", - deyə vurğulanıb.





Bələdiyyə üzvlüyünə namizədlər Kürdoğlu Muradov, Akif Saqiyev, Sevinc Alışova, Aytac Əliyeva, Sərraf Əzimov, İlham Səfərov və Samirə Abışova ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində atılan addımlar və qarşıda duran hədəflərdən danışıblar. Onlar seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# Demokratik inkişaf yolunda...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şərur rayonu, Alışar bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



Seçki qərargahının üzvü Cahandur Məhərrəmov, təşviqat qrupunun üzvləri Musa Şirəliyev, Nüsrət Həsənov, Tahir Əliyev və Adil Əhmədov, bələdiyyə üzvlüyünə namizədlər Asəf Babayev, Vüqar Quliyev, Seyid Müseyikazım, Vidadi Hüseynov və Cəmşid Həsənov bələdiyyə seçkilərinin əhəmiyyətindən bəhs ediblər. Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəlilədiyi, YAP-ın qarşıdan gələn bələdiyyə seçkilərinə böyük inamla və qələbə ruhunda qatıldığı diqqətə çatdırılıb.



YAP-ın seçki proqramından bəhs edən natiqlər vurğulayıblar ki, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, yerli özünüidarəetmənin səmərəliliyinin yüksəldilməsi, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması əsas hədəflərdəndir. Onlar seçicilərin Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərinə inandıqlarını söyləyiblər.

# Mingəçevirlilərin seçimi dəyişməzdir!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Mingəçevir şəhəri, Mingəçevir bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət nəticəsində bütün sahələr üzrə sürətli inkişafa nail olunduğunu deyib. Azərbaycanda bələdiyyələrin inkişaf perspektivlərindən danışan B.Mustafayev YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verib. O bildirib ki, Yeni Azərbaycan Partiyası yeni dönəmin çağırışlarına uyğun müəyyənləşdirilmiş hədəflərə nail olmaq üçün məqsədyönlü fəaliyyət həyata keçirmək əzmindədir.

Seçki qərargahının üzvləri Rizvan Mikayıllı, Xurşud Zamanova, Pərviz Məmmədov, bələdiyyə üzvlüyünə namizədlər Gültəkin Nəzərova, Anar Umudəliyev, Ruslan Seyidov, Mahnur Ömərova, Gülnarə Dadaşova, Gülnar Hidayətova, Anar İsmayılov, Ədalət Quliyeva və Nargilə Kərimova seçiciləri müasir Azərbaycanın vətəndaşlarının yüksək rifahı naminə ümumxalq partiyasının namizədlərinə səs verməyə çağırıblar. "İnanırıq ki, mingəçevirlilərin seçimi dəyişməz qalacaq və seçicilər yenə də ümumxalq partiyasına etimad göstərəcəklər", - deyə vurğulanıb



# Qəzzada atəş kəsildi!

## 8 bəndlik razılaşmaya 3 ölkə təminatçıdır...

Qəzza zolağında atəşkəs razılaşması əldə olunub. Beləliklə, İsraillə HƏMAS arasında Qəzzada 15 aydır davam edən münaqişə sona çatdı. Qeyd edək ki, İsrail və HƏMAS arasında atəşkəs razılaşması bir neçə mərhələdən ibarətdir və tərəflər arasında davamlı sakitliyə nail olmaq, girovların və əsirlərin mübadiləsini həyata keçirmək, həmçinin humanitar vəziyyəti yaxşılaşdırmaq məqsədi daşıyır. 8 bənddən ibarət razılaşmaya görə, tərəflər 27 may 2024-cü il tarixli müqaviləyə əsasən girovların və əsirlərin mübadiləsini həyata keçirəcək və daimi atəşkəs üçün yekun konsensusa nail olacaq. Bu müddətdə birinci mərhələdə qəbul edilən prosedurlar davam etdiriləcək. Eyni zamanda, İsrail qoşunları Qəzza zolağının sıx məskunlaşmış ərazilərindən çıxarılacaq. Əsas qüvvələr müəyyən ərazilərdən 700 metr məsafədə yerləşdiriləcək və yalnız 5 xüsusi məntəqədə əlavə mövcudluq saxlanılacaq. 3 bəndə əsasən müxtəlif qruplardan olan girovların və əsirlərin qarşılıqlı mübadiləsi həyata keçiriləcək. Xüsusi siyahılarda adı olan xəstə və yaşlı fələstinli məhbuslar azad ediləcək. Paralel olaraq İsrail qüvvələri birinci mərhələnin sonunda "Filadelfiya dəhlizi"ndən tədricən geri çəkiləcək. Geriçəkilmə prosesi son girovun azad edilməsindən 42 gün sonra başlanacaq və 50-ci gündən gec olmayaraq başa çatdırılacaq. Rəfah sərhəd-keçid məntəqəsi isə mülki şəxslər və yaralılar üçün açılacaq. İsrail bu prosesin vaxtında baş tutmasını təmin etməyə çalışacaq. Hər gün müəyyən sayda yaralı sərhədi keçə biləcək. Silahsız məcburi köçkünlərin geri qaytarılması üçün müəyyən dəhlizlər açılacaq və yoxlamasız hərəkətə icazə veriləcək. 7-ci və 22-ci günlərdə qayıdış üçün xüsusi yollar təmin ediləcək. Nəhayət, humanitar yardımlar razılaşdırılmış protokol əsasında həyata keçiriləcək və vasitəçilərin nəzarəti altında olacaq.

### 411 gündən sonra...

Qeyd edək ki, atəşkəs sazişi üç mərhələdə irəliləmək üçün nəzərdə tutulub. Birinci mərhələnin bazar günü-yanvarın 19-da başlayacağı və altı həftə davam edəcəyi gözlənilir. Bu mərhələdə atəşkəs əldə olunacaq, İsrail qoşunları geri çəkiləcək, girovlar və əsirlər dəyişdiriləcək, Qəzzaya humanitar yardımlar gələcək. CNN xəbər verir ki, Qətərin Baş naziri Məhəmməd bin Əbdülrəhman Əl Tani çərşənbə günü keçirdiyi brifinqdə deyib ki, ikinci və üçüncü mərhələlər hələlik az işlənib və təfərrüatlar birinci mərhələdə müəyyən ediləcək. Vasitəçilərin sazişin şərtləri üzərində 411 gün işlədiyi bildirilib: "Biz bu sövdələşmənin razılaşdırıldığı kimi həyata keçirilməsini təmin etmək üçün tərəfdaşlarımızla birlikdə mümkün olan hər şeyi etməyə davam edəcəyik".

### Əsir və girovlar azad edilir...

Təl-Əviv rəsmiləri bildirirlər ki, birinci mərhələdə İsrail ordusu ərazilərdən çəkilməyə başlayacaq, lakin Qəzza ilə Misir arasındakı "Filadelfiya dəhlizi" kimi tanınan sərhəddə qalacaq. İsrail həmçinin sərhədi boyunca Qəzza daxilində bufer zonasını saxlayacaq. Qeyd edək ki, HƏMAS və müttəfiqləri 2023-cü il oktyabrın 7-də İsraildən təxliyə edilən 94 nəfəri girov saxlayır. İsrail hökumətinin məlumatına görə, onlardan ən azı 34-ü ölüb, lakin bu say dəqiq deyil. Girovların 81-i kişi, 13-ü qadındır. Girovların 84-ü İsraildən, 8-i Tailanddan, biri Nepaldan, biri isə Tanzaniyadandır.

İkinci və üçüncü mərhələlər üzrə danışıqlar sazişin icrasının 16-cı günündə başlayacaq. ABŞ-ın fəaliyyətdə olan prezidenti Co Bayden bildirib ki, ikinci və üçüncü mərhələlərdə daha çox girovların azad edilməsi və Qəzzanın yenidən qurulmasına başlanılması daxildir.

İsrail hakimiyyət orqanlarının məlumatına görə, saziş 2023-cü il oktyabrın 7-də HƏMAS üzvlərinin İsrailə hücumu nəticəsində 1194-dən çox insanın ölümü və 250 nəfərin girov götürülməsi ilə müşayiət edilən müharibədə ikinci atəşkəsdir. Fələstin Səhiyyə Nazirliyinin məlumatına görə, isə hərbi hücumlar nəticəsində Qəzzada ən azı 46 min 645 fələstinli ölüb, 110 mindən çoxu yaralanıb. Qətərin Baş naziri Əl Tani CNN-in sualına cavab olaraq bildirib ki, ABŞ, Misir və Qətər atəşkəsin pozulmaması üçün mexanizm yaradıblar: "Sazişin icrasına nəzarət üzrə qərargah Qahirədə yerləşəcək və bu, üç ölkənin birgə komandası olacaq".

### Trampın xüsusi rolu...

Bayden administrasiyasının yüksək rütbəli rəsmisi bildirib ki, İsrail və HƏMAS arasında razılaşma ABŞ-ın yeni liderinin Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Vitkoff da daxil olmaqla, yeni seçilmiş prezident Donald Trampın komandası ilə konstruktiv tərəfdaşlıq sayəsində əldə edilib. "New York Post" qəzeti isə yazır ki, Bayden atəşkəsin əldə olunmasında Trampın rolunu etiraf etməkdən çəkinir. Eyni zamanda, İsrailin Baş naziri Benyamin Netanyahu Qəzza zolağında atəşkəs razılaşmasının əldə olunmasına kömək etdikləri üçün həm Trampa, həm də Baydenə təşəkkür edib.



### Dünya atəşkəsi alqışlayır...

Qeyd edək ki, Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) İsrail və HƏMAS arasında əldə olunan atəşkəslə bağlı bəyanat yayıb. XİN-in bəyanatında deyilir ki, Azərbaycan Qəzzada atəşkəs və girov razılaşması barədə elanı alqışlayır. Bütün tərəflərin razılaşmaya hörmət edəcəyinə və əzablara son qoyulacağına ümid edirik: "Azərbaycan, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, İsrail-Fələstin münaqişəsinin iki dövlət prinsipi əsasında həllini dəstəkləyir və beynəlxalq ictimaiyyətlə bu məqsəd üçün işləməyə davam edəcək".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qəzzadakı atəşkəslə bağlı açıqlamasında bildirib ki, HƏMAS ilə İsrail arasında atəşkəs danışıqlarının razılaşma ilə yekunlaşmasını alqışlayır: "Ümid edirik ki, razılaşma fələstinli qardaşlarımız, bölgəmiz və bütün bəşəriyyət üçün faydalı olacaq və davamlı sülh və sabitliyin qapısını açacaq".

Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş atəşkəs razılaşmasını alqışladığını bəyan edib: "İndi diqqət müharibənin yaralarının sağalmasına yönəldilməlidir".

Avropa Komissiyasının rəhbəri Ursula Fon der Leyen də X hesabında İsrail və Həmas arasındakı atəşkəs razılaşmasından məmnunluğunu ifadə edərək, bunun məhbusların ailələrinə çatmasına və humanitar yardımların Qəzzada mülki şəxslərə çatmasına imkan yaradacağını bildirib.

Almaniya Kansleri Olaf Şolz da X sosial media platformasında verdiyi açıqlamada Qəzzada atəşkəslə bağlı razılaşmanın və aralarında almanların da olduğu girovların azad edilməsinin müsbət hal olduğunu bildirib: "Bu razılaşma artıq ardıcıl şəkildə həyata keçirilməlidir. Bütün girovlar azad edilməlidir".

Britaniyanın Baş naziri Kir Starmer açıqlamasında bildirib ki, "bu atəşkəs Qəzzada evləri bir gecədə müharibə zonasına çevrilən günahsız fələstinlilər və həyatını itirən çoxlu insanların iztirablarına son qoymalı, təcili olaraq ehtiyac duyulan humanitar yardımın kütləvi şəkildə artırılmasına imkan verməlidir".

İtaliya Baş Nazirliyi isə yazılı bəyanatında rəsmi Romanın Qəzzada atəşkəs və HƏMAS tərəfindən saxlanılan girovların azad edilməsi ilə bağlı razılaşmanı alqışladığını bildirib: "Misir, Qətər və ABŞ-ı uzun danışıqlar prosesindən sonra əldə edilən bu uğura görə təbrik edirik".

Fransa prezidenti Emmanuel Makron bildirib ki, bu razılaşma 15 aylıq haqsız əzabdan sonra Qəzza xalqı üçün böyük bir rahatlıq, məhbuslara və onların ailələrinə ümiddir: "Bu gecə fikirlərim Ofer və Ohad (Fransız məhbuslar) ilədir. Müqaviləyə əməl edilməlidir. Məhkumlar azad edilməlidir".

*P.İSMAYILOV*

---

# İrəvan regionu təhlükə çəmbərinə salır

Yanvarın 14-də Vaşinqtonda, ABŞ Dövlət Departamentində imzalanan Ermənistan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlıq haqqında saziş Cənubi Qafqaz regionunda yeni yaranan münasibətlər sisteminə mühüm təsirləri ilə yadda qalacaq. Belə ki, sazişdə yer alan müddəalara diqqət yetirdikdə, sənədin təsir yaradacaq arealının genişliyi diqqəti cəlb edir.

## İmzalanan strateji saziş ABŞ-ın maraqlarının ifadəsidir

İlk olaraq vurğulanmalıdır ki, 5 bənddən ibarət bu sənəd heç də Ermənistan tərəfindən təbliğatı aparıldığı kimi "müttəfiqlik" sənədi deyil. Sazişin preambulasına nəzər yetirdikdə, bu, "dostluq münasibətlərinin və strateji tərəfdaşlığın əhəmiyyətini təsdiqləmək" kimi nəzərdə tutulur.

### ABŞ Ermənistanı niyə "seçib"-"oyuncaq ölkə" yenidən maraq aləti rolunda

Ayrı-ayrı bəndlərə baxdıqda isə ortaya maraqlı nüanslar çıxır. Qeyd edək ki, sənədin Ermənistanın xüsusi dəstəklənməsi üçün nəzərdə tutulmadığı, sadəcə ABŞ-ın özünün regional maraqlarının təmininə istiqamətləndiyi ilk baxışdan ortaya çıxır. Məsələn, "Əməkdaşlıq prinsipləri" adlanan birinci bölmədə yer alan "Birləşmiş Ştatlar Ermənistanın Avro-Atlantik birliyin digər ölkələri və daha geniş demokratik ictimaiyyətlə siyasi, iqtisadi, təhlükəsizlik və sosial əlaqələrini dərinləşdirmək səylərini alqışlayır" ifadəsi İrəvanın hansısa hərbi qrupa və ya Qərbin spesifik iqtisadi birliyinə inteqrasiyasını təmin etməyə qərarlılıqla bağlı məlumat vermir - sadəcə, İrəvanın cəhdləri "bəyənilir". Bunun altında yatan əsas məsələ isə "tərsbucaq"dır - əslində, ABŞ Ermənistanı "Qərbin oyuncağı"na çevirərək onu hazırda təmsil olunduğu "ünvanlardan" qoparmaqda maraqlıdır. Gürcüstanla 2009-cu ildə bağlanan anoloji saziş qüvvədən düşdüyü üçün Vaşinqton regiona təsir imkanlarını tam itirməkdə idi. Məhz bu nöqteyi-nəzərdən heç kimə lazım olmayan Ermənistan ABŞ-ın "favoriti"nə çevrilir. Bu fikrin əsas kodu həmin bölmədə qeyd edilən "Birləşmiş Ştatlar Cənubi Qafqazda ölkələrin suverenliyi və yurisdiksiyası əsasında regional nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasını dəstəkləyir" fikrində gizlənir. Yəni, ABŞ xüsusilə Zəngəzur dəhlizinin 2020-ci il 10 noyabr razılaşması əsasında açılmasından açıq şəkildə ehtiyat etdiyini ortaya qoyur. ABŞ və bir sıra dövlətlərin 4 ildən artıqdır ki, Zəngəzur dəhlizi ilə bağlı məsələdə "suverenlik" məsələsinə "istinad" etməsi onları burada açıq-aydın ələ verir - Vaşinqtonun hazırladığı sənəd ABŞ-ın yeni kommunikasiya siyasətinin konturlarını özündə ifadə edir.

### Regional layihələrə "giriş bileti"...

Eyni ilə, ikinci bölmədə yer alan "Ermənistanın enerji istehsalı və təchizatını diversifikasiya etmək və artırmaq imkanlarını araşdırmaq niyyəti", "nüvə təhlükəsizliyi və silahların yayılmaması standartlarına uyğun mülki nüvə enerjisi proqramının hazırlanması" kimi müddəalar da İrəvanın bu "tamaşada" daha çox bölgəsəl təhdid roluna "uyğun görüldüyünü" təsdiqləyir. Dünənə qədər atom enerjisinin yayılmasına qarşı radikal çıxışları ilə tanınan ABŞ-ın Ermənistanda "dinc" məqsədlərlə belə olsa atom enerjisi yönümlü əməkdaşlığa "can atması" onu göstərir ki, Vaşinqton bu sənəd vasitəsilə özünün maraqlarını təmin etməyə niyyətlənib.

Bu bölmədə göstərilir ki, "ABŞ Ermənistanı daha geniş regional nəqliyyat şəbəkələrinə və təşəbbüslərə, xüsusən də "Dünyanın kəsişməsi" layihəsinə güclü siyasi dəstək vasitəsilə inteqrasiya etməyə yönəlmiş əməkdaşlığı dərinləşdirmək niyyətindədir". Təbii ki, ABŞ hazırki regional reallıqları tam şəkildə dərk edir - anlayır ki, bu gün bölgədə yaranan yeni strateji əməkdaşlıq blokunun əsas konturları məhz nəqliyyat dəhlizləridir. Şərq-Qərb və Cənubi-Şimal kontentləri üzrə daşımaçılıq gələcək dünyanın əsas iqtisadi damarlarına çevrilmə perspektivi yaradır. Həmin dəhlizlərə "giriş bileti" əldə etmək üçün isə hər zaman olduğu kimi Cənubi Qafqazın ən zəif və milli marağını qoruya bilməyən dövləti sayılan Ermənistan üzərindən oyun qurulur. ABŞ "əməkdaşlıq" adı altında Ermənistanın vasitəsilə bu böyük və strateji yol proyektlərinin tərəfi olmağa çalışır.

### ABŞ-ın siyasi "dəyənəyi" - İrəvan təxribat yuvası statusu alır

Dördüncü bölmə olan "Demokratiyanın, ədalətin və inklüzivliyin gücləndirilməsi" və beşinci bölmə olan "İnsan münasibətlərinin və mədəni mübadilənin təşviqi" isə "5 aprel" razılaşmasının davamı və ya təkrarıdır. Bu bölmələr üzrə tələbə mübadiləsi, inklüzivliyin artırılması istiqamətində "birgə səylər" nəzərdə tutulur ki, əslində, bu da ABŞ-ın Ermənistan üzərindən köhnə oyunları davam etdirmək istəyindən qaynaqlanır. Başqa sözlə, vaxtilə Gürcüstanda "boy göstərən" və ayrı-ayrı ölkələrdəki beşinci kalonu maliyyələşdirən strukturların indi də Ermənistana köçürülməsi təmin olunacaq. Bu isə Ermənistanın həm də yeni təxribat yuvası olacağını deməyə əsas verir.

### "Sos" siqnalı - təhlükənin adı "Ermənistan"dır...

Sazişin əsas bölmələrindən biri olan " Müdafiə və Təhlükəsizlik" bölməsi də ABŞ-ın regionla bağlı arzularının və planlarının ifadəsidir. Bu səbəbdən də sənədin adıçəkilən bölməsi "Cənubi Qafqazda sülh Ermənistanda və regionda davamlı iqtisadi artımın və demokratik inkişafın açarı" kimi girişlə başlayır, ardından "Ermənistan və ABŞ arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq hər iki ölkə və region üçün faydalıdır" kimi davam edir. Yəni, ABŞ məhz bu "əməkdaşlıq" sayəsində regiona daxil olacaq, özünün silahlı dəstələrinin Ermənistanda yerləşdirilməsinə hüquqi status qazandıracaq. Təsadüfi deyil ki, sənədin imzalanmasının ardından bu müddəa haqqında Dövlət katibi Blinken xüsusi şərh verib. Blinken deyib ki, ABŞ gələn həftə sərhəd təhlükəsizliyini gücləndirmək məqsədilə Ermənistana xüsusi sərhəd mühafizə qrupu göndərəcək. "Bu istiqamətdə müvafiq işləri gücləndirəcəyik", - Blinken bildirib.

Beləliklə, dünənə qədər Aİ missiyası daxilində aparılan kəşfiyyat işlərinin mühüm hissəsi artıq ABŞ-a "həvalə edilir". Təsadüfi deyildi ki, bu ilin yayında Azərbaycan KİV-ləri Ermənistana ABŞ-ın xüsusi hərbi dəstələrinin gətirildiyini yazmışdılar. İrəvana "eniş edən" təyyarələrdə kəşfiyyat sistemlərinin, hava radarlarının və digər qurğuların olduğu göstərilirdi. Demək ki, yanvarın 14-də imzalanan sənəd yaydan başlayan gizli sövdələşmələrin rəsmiyyətə mindirilməsidir. Həmin bölmədə yer alan "Ermənistan və ABŞ müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq proqramlarının əhatə dairəsinin genişləndirilməsi, gələn il ərzində ikitərəfli müdafiə məsləhətləşmələrinə təşəbbüs göstərilməsi, hərbi təlim vasitəsilə Ermənistanın silahlı qüvvələrinə dəstək verilməsi" kimi məsələlər bu müddəanın daha geniş təsbitidir. Yəni, artıq bütün region ölkələri üçün real təhülkə mövcuddur - Ermənistan bu təhlükənin sadəcə "adıdır".

Eyni zamanda, bu həm də onu göstərir ki, ABŞ artıq regionu Aİ vasitəsilə "müşahidə etmək" istəmir. Yəni, bütün kartları ifşa edilən Aİ-nin monitorinq missiyasının "kəşfiyyat üzü" tam açılıb. ABŞ artıq bu prosesə özü nəzarət edəcək - bu isə regionla bağlı ciddi "SOS" siqnalı yaradır. Təbii ki, bu siqnal tək Azərbaycana qarşı deyil...




### Rusiya gözləmə mövqeyindədir - Mirzoyan Kremlə çağırıldı...

Ermənistanın Qərbə doğru aldığı "təhlükəli yol" isə təbii olaraq region ölkələri tərəfindən etirazla qarşılanır. Düzdür, hələ ki, ayrı-ayrı dövlətlər tərəfindən açıq kontekstdə etirazlar səslənməsə də, buna işarələr var. Məsələn, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistanın həm ABŞ, həm də Aİ ilə bağlı "planları" haqda danışarkən bildirib ki, Ermənistanın Avropa İttifaqına üzvlüyü Avrasiya İqtisadi İttifaqla eyni vaxtda iştirakla bir araya sığmır. "Çünki bunlar iki fərqli azad ticarət zonası, rüsumların və tariflərin azaldılması və ya imtinası üçün iki fərqli sistemdir, onlar eyni deyil", - o, deyib.

S. Lavrov Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın ABŞ-a səfərini də şərh edib. Bildirib ki, Ermənistanla ABŞ arasında tərəfdaşlıq sazişinin imzalanması iki ölkənin suveren qərarıdır. "Eşitdim ki, Ararat Mirzoyan Blinkenlə strateji tərəfdaşlıq sazişi imzalayıb - bu, iki dövlətin suveren qərarıdır".

Nazir onu da vurğulayıb ki, əsas sənədin imzalanma faktı və adı deyil, bundan irəli gələnlərdir. Bundan əlavə, Rusiya XİN rəhbəri indiki mərhələdə Moskva ilə İrəvan arasında münasibətlərin asan olmadığını bildirib. O həmçinin qeyd edib ki, Ararat Mirzoyan Moskvaya "dəvət" edilib.

Əslində Rusiya anlayır ki, indiki məqamda Ermənistanın imza atdığı saziş onun "Ukrayna masa"sında da əlini zəiflədir. ABŞ artıq açıq şəkildə Rusiyanı razılığa gəlməyəcəyi təqdirdə, "Cənub cəbhəsi" ilə təhdid edə bilər...

### Tehran susur - Ermənistan Tehranı qırmızı-qırmızı satır

Maraqlıdır ki, bu sazişlə bağlı rəsmi Tehran hələ də susqunluğunu qoruyur - İran etiraz bəyanatı vermir. Halbuki bu yeni təhlükənin qarşısında İranın sükuta qərq olması məntiqli sayıla bilməz. Çünki bir neçə ay öncə İran bölgəyə kənar dövlətlərin hərbi birləşmələrini cəlb edilməsinin əks-təsir verə biləcəyini deyirdi. Qeyd olunmuşdu ki, regionu kənar dövlətlərin geosiyasi rəqabət meydanına çevirmək bölgənin bütün dövlətlərinin maraqlarına ziddir. Ermənistan artıq bu istiqamətdə real addımlar atmaqdadır. Ermənistan ilə ABŞ arasında imzalanan saziş amerikalı hərbçilərin Ermənistan daxilində yerləşməsinə hüquqi zəmin formalaşdırır.

Bir müddət öncə Ermənistana gətirilən kəşfiyyat cihazları isə daha çox İranın ərazisinə tərəf "boylanacaq".

Eyni zamanda, bu amil Ermənistan ərazisindən İrana mümkün müdaxilə ehtimalını gücləndirir. Halbuki Azərbaycan heç bir zaman belə bir addıma razı olmamışdı. Ermənistan isə İranın düşmənini onun sərhədləri kənarına "gətirib".

İran bu sazişin bağlanmasından bu və ya digər şəkildə xəbərdar olub - sazişdən cəmisi iki gün öncə İran-Ermənistan parlament dostluq qrupunun nümayəndə heyətinin İrəvana gəlişi bunu təsdiqləyir. Belə ki, İran-Ermənistan parlament dostluq qrupunun rəhbəri Ara Şavardyanın başçılıq etdiyi nümayəndə heyəti ötən bazar günü axşam İrəvana səfər edib. Rəsmi açıqlamada səfərin məqsədinin parlament və hökumət nümayəndələri ilə görüşlər, ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi kimi göstərilsə də, alt qatda İranın Ermənistanı fikrindən daşındırmağa çalışdığı bəllidir. Amma alınmadı - dünənə qədər "qırmızı xətt"lə maraqlarını qoruduğu Ermənistan bu gün qırmızı-qırmızı İranı satır...

*Pərviz SADAYOĞLU*

# Yaxın Şərqdə Türkiyə amili...

## Beynəlxalq güc mərkəzləri Ankaranın hərbi-siyasi qüdrəti ilə hesablaşmaq məcburiyyətindədir



Artıq Azərbaycanın can qardaşı Türkiyə Yaxın Şərqdə, o cümlədən Qara dəniz, Şərqi Aralıq dənizi və Cənubi Qafqazda, hətta şimal-şərqi Afrikada güc mərkəzinə çevrilib. Heç bir şəkildə inkar oluna bilməz ki, Türkiyə bu regionlarda söz sahibidir.

Hər zaman qlobal dünyanın qaynar nöqtəsi olan Yaxın Şərqdə baş verən son proseslər onu deməyə əsas verir ki, rəsmi Ankara bu regionda geniş geosiyasi, geostrateji və geoiqtisadi təsir imkanlarına malikdir və yaxın gələcəkdə bölgədə təsir rıçaqları daha da artacaq.

Yaxın Şərqdəki proseslərin nizamlanmasında Ərəb ölkələri - İraq, İordaniya, Səudiyyə Ərəbistanı, Küveyt, Qətər və Birləşmiş Ərəb Əmirlikləri, həmçinin İran və İsrail Türkiyənin mövqeyini nəzərə alacaqlar və Türkiyənin maraqlarına zidd olan addımlar atmaqdan çəkinəcəklər.

Beynəlxalq güc mərkəzləri - ABŞ, Böyük Britaniya, Rusiya və Çin istər-istəməz, Türkiyənin Yaxın Şərqdə diplomatik-siyasi və hərbi-siyasi qüdrəti ilə hesablaşmaq məcburiyyəti qarşısında qalıblar.

Qeyd etmək lazımdır ki, istər indiki, istərsə də gələcək zamanda Yaxın Şərqdə ABŞ-Türkiyə tərəfdaşlığı zəruridir. NATO-da yüksək hərbi qüdrətə və potensiala, müasir hərbi sənayeyə və texnikaya sahib olan, özünün və regionun təhlükəsizliyini təmin etmək iqtidarında olan Türkiyə ABŞ üçün çox önəmlidir. Demək olar ki, ABŞ-ın Yaxın Şərq strategiyasında Türkiyə prioritet ölkə hesab olunur.

Bölgə ilə bağlı bəzi məsələlərdə ABŞ və Türkiyənin maraqlarının toqquşmasına baxmayaraq, Ankara və Vaşinqton zaman-zaman regionda bəzi problemlərin həll olunmasında birgə əməkdaşlıq ediblər.

Bu gün ABŞ-ın Türkiyəyə ehtiyacı var. Təkcə Körfəz ölkələri - Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirlikləri və İsraillə yox, həmçinin Türkiyə ilə də diplomatik-siyasi, hərbi-siyasi və hərbi-təhlükəsizlik fonunda sıx əməkdaşlıq ABŞ-ın Yaxın Şərqdə öz geostrateji və geosiyasi mövqeyini qoruması üçün xüsusi əhəmiyyət kəsb edir.

ABŞ bundan sonra da Türkiyə ilə birgə əməkdaşlıq çərçivəsində Yaxın Şərqdə terror təşkilatlarına qarşı uğurlu mübarizə, regionda istənilən təhlükənin qarşısını ala bilər. Yaxın Şərqin bəzi bölgələrində, xüsusilə Suriya və İraqda təhlükəsizliyin və sabitliyin bərqərar olunmasına yönələn strategiyanın müəyyən olunmasında ABŞ-Türkiyə tərəfdaşlığı mühüm rol oynaya bilər. Sözsüz ki, bu strategiyada İsrail, Səudiyyə Ərəbistanı, Küveyt, Qətər və BƏƏ öz sözünü deyəcək.

Yaxın Şərqdə ABŞ-Türkiyə tərəfdaşlığı mümkündür, amma təəssüf ki, bu tərəfdaşlığa əngəl olan problemlər mövcuddur. Bu problemləri diqqətdən qaçırmaq olmaz. Bu problemlərin hansı səbəblərdən irəli gəldiyini nəzərə aldıqda elə bu əngəllərin ABŞ-ın özü yaratdığını anlaya bilərik.

Ən başlıca əngəl, bildiyimiz kimi, ABŞ-ın Suriyada YPG terror təşkilatına dəstək verməsidir. ABŞ daxil olmaqla bəzi ölkələr - Fransa, İran və Rusiya zaman-zaman YPG/PKK-dan istifadə etməklə Yaxın Şərqdə öz geosiyasi və geostrateji maraqlarını həyata keçirib, regionda münaqişələrə yol açıb və Türkiyənin təhlükəsizliyinə təhdid yaratmağa cəhd ediblər. Sözügedən güc mərkəzlərinin Türkiyənin Suriyada geostrateji qələbəsinə münasibəti onu göstərir ki, onlar bölgədə qeyri-sabitliyin davam etməsində maraqlıdırlar.

Buna görə də yaxın gələcəkdə də YPG-dən "siyasi maşa" kimi istifadə ediləcəyi istisna deyil. Ən diqqətçəkən məqam budur ki, Suriyada vətəndaş müharibəsi zamanı YPG-yə ən çox maliyyə dəstəyi göstərən və qruplaşmanı silah-sursatla təmin edən ölkə məhz Amerika Birləşmiş Ştatları olub. Vaşinqton Suriyada öz geosiyasi maraqlarının təminatında YPG-ni münasib amil kimi görüb. Hətta Vaşinqton YPG vasitəsilə İŞİD-ə qarşı "mübarizə" adı altında həm Suriyanın şimal-şərq ərazilərinə nəzarət, həm də bölgədəki neft resurslarını istismar etməyə çalışıb.

Bu gün ABŞ və Türkiyə arasında Suriya ilə bağlı danışıqlarda YPG ən önəmli mövzu hesab olunur. Ola bilsin ki, yanvarın 20-də ABŞ-ın prezidenti olmağa hazırlaşan Donald Tramp YPG məsələsində Türkiyəyə güzəştə getsin. Amma bu, hələ sual altındadır. Çünki Trampın komandasında Suriya və İraqda kürd separatçılarına dəstək verməkdə maraqlı olan şəxslər var.

Digər narahatedici məqam ABŞ-ın hələ də Suriyada yeni hökumətini legitim hakimiyyət kimi tanımamasıdır. Gələcək prezident Donald Trampın Suriyanın yeni hökumətini tanıyıb-tanımayacağı da sual altındadır.

Eyni zamanda ABŞ Yaxın Şərqdə yalnız öz hegemon siyasətini güdür və heç bir güc mərkəzinin bu regionda maraqlarını nəzərə almaq istəmir. Təəssüf ki, Türkiyənin Yaxın Şərqdə söz sahibi olması Vaşinqtonun o qədər də marağında deyil. Bayden administrasiyasının Türkiyənin Suriyada son uğurlarına xoş münasibət sərgiləməməsi bunu deməyə əsas verir.

Bütün bunlarla yanaşı, əgər ABŞ Türkiyəyə düşmən kəsilən güc mərkəzlərin regiona müdaxiləsinə imkan verərsə, bu, Türkiyə-ABŞ münasibətlərinə mənfi təsir etməklə yanaşı, regionda növbəti ciddi təhlükələr yaradacaq.

Ümidvarıq ki, Tramp administrasiyası Bayden administrasiyasının səhvlərini təkrarlamayacaq və Türkiyə ilə münasibətlərdə düzgün və rasional siyasət yürüdəcək, Yaxın Şərqin yeni təhlükəsizlik arxitekturasının müəyyən olunmasında Ankaranın mövqeyini nəzərə alacaq.

YPG terror təşkilatına dəstəkdən əl çəkmək, Suriyada qurulan yeni hökuməti legitim hakimiyyət kimi tanımaq və sülhdə maraqlı olmayan və məkrli niyyətlər güdən güc mərkəzlərin regiona müdaxiləsinə imkan verməmək Yaxın Şərqdə ABŞ-Türkiyə tərəfdaşlığına yol aça bilər. Vaşinqton, hətta Yaxın Şərqdə Türkiyə ilə İsrail arasında təmasların qurulmasında vasitəçilik edə bilər. Hər halda həm Türkiyə, həm də İsrail ABŞ-ın müttəfiqidir və Yaxın Şərq strategiyasını yalnız bu iki ölkə ilə koordinasiya edə bilər.

Tramp administrasiyası yalnız bu halda Yaxın Şərq siyasətində nailiyyətlər əldə edəcək.

***Yunis Abdullayev***

# Qızılın dəyəri rekord həddə çatıb

## Cəlbedici investisiyaya çevrilən bu metalın yığımları da durmadan artır

2025-ci ilin ilk yarım ayı dünya birjalarında qızılın qiymətinin kəskin bahalaşması ilə müşayiət olunub. Dekabrın son günlərində bir troya unsiyası 2400-2500 dollara olan qızılın hazırkı qiyməti 2700 dollara yüksəlib. Nyu-Yorkun "Comex" birjasında qızılın bir unsiyası üçün fevral fyuçerslərinin qiyməti təxminən 10 dollar artımla proqnozlaşdırılaraq 2720 dollar ehtimal edilib.

ABŞ-ın UBS analitiklərinin fikrincə, qızılın qiymətinin 2025-ci ildə də artmağa davam edəcəyini proqnozlaşdırır. Bu amil investorlar arasında da yığımların transformasiyasına yeni stimullar verməkdədir. Ehtimal olunur ki, qlobal səhmdarlar dünya səhm bazarındakı dəyişkənliklərə cavab olaraq, öz yığımlarını daha təhlükəsiz investisiya seçimlərinə, daha doğrusu qızıla yönəldəcək. Analitiklərin fikrincə, daha güclü ABŞ dolları və artan ABŞ istiqraz faizləri ilin ilk yarısında qızıl üzərində təzyiq yarada bilər. Ancaq buna baxmayaraq, külçə qızıl üçün tələbin artması ilə qiymətlərin ilin sonuna qədər 2,850 dollara çatacağı gözlənilir.

### ABŞ-da siyasi hakimiyyət dəyişikliyi qızılın dəyərini yüksəldir

Qızılın bahalaşmasına ABŞ-da Donald Trampın prezident seçilməsinin təsirləri istisna deyil. Belə ki, Trampın yeni maliyyə siyasəti ucuz dollar, bahalı qızıl investisiyasına əsaslanır. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Bu siyasət nəticə etibarilə iqtisadi aktivliyi və ixrac gəlirlərini yüksəldir. Dollar ucuzlaşanda isə qızıl bahalaşır. Eləcə də virtual pulların bahalaşması stimullaşır, qiymətli metallar yeni dəyərlər qazanır.

Qızılın bahalaşmasına ABŞ-ın Federal Ehtiyat Sisteminin (FED) pul siyasətinin də təsirləri az rol oynamır. FED tərəfindən uçot dərəcəsi aşağı salındıqda Amerika valyutası ucuzlaşır və qızıla tələbat artır. Bayden hakimiyyətinin sonlarında, 2024-cü ildə FED uçot dərəcəsini artırmağa yönəlmiş addımlar atsa da, artıq pul siyasətinin əks istiqamətdə - uçot stavkasının aşağıya doğru meyl edəcəyi gözlənilir. Məhz bu amil də qızılın cəlbediciliyini artırır.

Ümumiyyətlə, qızıl bir qiymətli metal olaraq qlobal iqtisadiyyatda daim real vəziyyət göstəricisi sayılır və hər il qızıl yığımlarının həcmi artır. Ümumdünya Qızıl Şurasının məlumatına görə, 2024-cü ildə dünya mərkəzi banklarının xalis qızıl alışı əvvəlki illə müqayisədə 40 faizdən çox artaraq 800 tona çatıb. Dünyada investisiya aləti kimi qızıla tələbat isə 5 faizə yaxın artaraq 5 min tona yaxınlaşıb.



### Azərbaycan üçün qızıl dövr başlayır

Dünya bazarında bu dəyərli metalın qiymət volatilliyi Azərbaycana da təsirsiz ötüşmür. Qızıl iqtisadiyyatda çətin zamanların təhlükəsiz limanı rolunu oynadığından bütün investorlar kimi azərbaycanlı bank və fondlar, o cümlədən Mərkəzi Bank, Dövlət Neft Fondu öz portfellərində qızıl investisiyalarına üstünlük verməkdədir. Neft Fondunun 2024-cü ilin III rübündə investisiya portfelinin 10 milyard 844,9 milyon dollarlıq hissəsini (17,7 faiz) qızıl investisiyaları təşkil edib. DNF, ümumlikdə ötən ilin III rübündə 12,1 ton qızıl alıb.

Azərbaycan həm də qızıl ixrac edən ölkədir və hasil olunan metalın ixracı ölkəmizə dividentlər qazandırır. 2024-cü ilin yanvar-oktyabr aylarında Azərbaycanda 2,2 min tona yaxın qızıl istehsal edilib. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 35,9 ton və ya 1,7 faiz çoxdur. Ötən ilin eyni dövründə qızıl ehtiyatı isə 287,8 ton olub. Eyni zamanda, ölkəmiz ixracı da davam etdirib, İsveçrəyə 115 milyon 265,3 min dollar dəyərində 2 min 902 ton qızıl ixrac edib. Həmçinin, xarici ölkələrdən 1 milyard 833,9 milyon dollar dəyərində 23 min 859 tona yaxın qızıl idxal edib.

Mövcud ehtiyatlar təsdiqləyir ki, ölkəmizdə qızılçıxarma sənayesinin perspektivləri çox ümidvericidir. Çünki işğaldan azad edilmiş ərazilərdə qızıl ehtiyatları kifayət qədər böyükdür. Hazırda azad edilmiş ərazilərdə qızılçıxarma sənayesində yeni mərhələ başlayıb. Kəlbəcər, Zəngilan, Cəbrayıl və Ağdərə rayonlarındakı qızıl yataqlarının hasilatına xarici investorlar cəlb edilib. Bu isə azad ərazilərin böyük valyuta gətirəcək zonaya çevrilməsinə, Azərbaycanın qızıl ehtiyatlarının artmasına səbəb olacaq.

Beləliklə, qızılın dünya bazarlarında rekord artımları Azərbaycan üçün əlverişli və yeni investisiya bloku kimi xüsusi əhəmiyyət daşıyır.

***E.CƏFƏRLİ***

# Sükuta sığınmaq, zənciri qırmaq

## Kamilo Xose Selanın "Paskual Duartenin ailəsi" romanı haqqında

İyirminci yüzil ispan nəsrinin Migel de Unamunodan sonrakı dövr üçün ən nüfuzlu imzası Kamilo Xose Seladır. Özünü Unamunonun şagirdi sayan Sela Nobel mükafatına layiq görülmüş ispan ədəbiyyatı nümayəndələrinin hələlik sonuncusudur (nasir kimi həm də birincisi, çünki ondan əvvəl bu mükafat ispanlardan iki dramaturqa, iki də şairə verilmişdi) - 1989-cu ildən bəri İspaniyada planetin ən nüfuzlu söz yarışından qalib çıxan yazıçı olmayıb. Onun haqqında danışmağa çalışacağımız əsəri Servantesin "Don Kixot"undan sonra dünya dillərinə ən çox tərcümə olunmuş ispan romanıdır. Azərbaycan dilinə bu əsəri yazıçı-tərcüməçi Saday Budaqlı çevirib.

"Paskual Duartenin ailəsi" romanı Alber Kamünün "Yabançı" romanıyla eyni vaxtda - 1942-ci ildə işıq üzü görüb. Onda Selanın iyirmi altı yaşı vardı - o, Kamüdən üç il sonra dünyaya gəlib. Bu faktlarda qeyri-adi heç nə yoxdur; təəccüblü olan burasıdır ki, eyni dövrdə, bir-birindən uzaqda qələmə alınmış bu iki əsər arasında qəribə bir yaxınlıq, xarakter, məna, məzmun qohumluğu var. Hər iki roman ölümə məhkum olunmuş dustağın adından yazılıb, hər iki əsərin qəhrəmanı anasına soyuq münasibət bəsləyir, hər iki romanın təhkiyəçisi istəmədən cinayətə bulaşır, insan qətlə yetirir. Qəhrəmanlar ikisi də sonda edam olunur, ancaq Kamünün Mersosundan fərqli olaraq Selanın qəhrəmanı Paskualın boynunda bir yox, bir neçə ölüm var. Kamünün romanı kimi Selanın əsəri də ekzistensializm fəlsəfəsi həvəskarları üçün müntəxəbat yerinə istifadə oluna bilər.

***

Roman zindanda edamını gözləyən əlli beş yaşlı Paskual Duartenin xatirələri, etirafları üslubunda onun dilindən qələmə alınıb. Şəhərdən aralı yoxsul bir kənddə, kasıb ailədə dünyaya göz açmış Paskual uşaqlıqdan xoş gün görməyib, mənhus taleyi onu daşdan-daşa çırpıb. Qaçaqmalçılıqla məşğul olduğuna görə məhbəsdə yatan portuqal əsilli, iri gövdəli zalım, bədheybət atası ona da, anasına da həmişə zülm, işgəncə verib. Gün gəlir, ata it tutması nəticəsində quduzluğa yoluxur, onu yerli adət-ənənəyə uyğun şəkildə tövləyə qapadıb acından ölməyə məhkum eləyirlər.

Dərd burasındadır ki, bəxtsiz qəhrəman ta uşaqlığından bəri anasından da mehribanlıq, şəfqət görməyib, əyyaşlığa, dava-dalaşa, pozğunluğa meyilli bu qadın da övladlarına biganə olub. Paskualın gözünün qabağında böyümüş istəkli (bilmirəm bu xarakter haqqında belə söz işlətmək düzgündürmü) bacısı Rosario yeniyetmə yaşına çatar-çatmaz evdən qaçıb şəhərdə bədənini satmaqla özünə güzəran qurmağa, gün ağlamağa çalışır. Anasının oynaşı Paskual baxa-baxa xəstə, anlaqsız qardaşı Marionu yiyəsiz küçük kimi təpikləyəndə ana da məşuquna qoşulub qulaqlarını donuz gəmirmiş yesir, köməksiz uşağa gülür. Sonra heç kimə gərək olmayan o xəstə uşaq yağ küpünə düşüb boğulur, bu dəhşətli mənzərə Paskualın yaddaşından ömrü boyu silinmir. Bütün bu deyilən-deyilməyən faktlar şərdən şər törədiyini, qəhrəmanın aqibətinə hələ doğulmamışdan sərəncam verildiyini, aldığı zədələrin ona mənhus tale yazdığını göstərir.

***

Halbuki Paskual da başqa həyat yaşamaq, xoşbəxt olmaq istəyirdi. Ürəyinin dərinliyində o qətiyyən pis adam deyil, hətta bəlkə yaxşı adamdır. Yoxsulluq onu qorxutmur, Paskual qoçaq oğlandır, sərrast atan ovçudur, zəhmətə qatlaşıb ailəsini dolandırmaq gücündədir. Yoxsul kənddə yaşayışın son dərəcə çətin olduğuna baxmayaraq bu ağır şərtlər altında həyat dolu sağlam kəndçi qızıyla evlənməyə də özündə təpər tapır, toya gələnlərə bol yemək-içmək verir, sonra da gənc arvadıyla əyalət şəhərində bala batırılmış günlər-saatlar keçirir. Səfərdən qayıdanda Lolanı evə göndərib dostlarıyla meyxanada əylənir, tay-tuşlarından biri sərxoş başla ona kobud söz atıb sevincinə zəhər qatır. Tikanlı eyham, atmaca götürməyən impulsiv xarakterli Paskual abırsız gəncə üç bıçaq zərbəsi vurmaqla alnına həkk olunmuş amansız fərmanın icraya yönəldilən ilk bəndinin altından birdən-birə üç imza qoyur.

Hər bədbəxtlik özüylə yeni bəla gətirir. Evə çatanda məlum olur ki, ondan sonra Lola atdan yıxılıb, uşaq salıb. Paskual özünü tövləyə verib, arvadını yıxan madyana iyirmi bıçaq vurur, bundan sonra sevinc onun çöhrəsindən yenə silinib gedir: "Bu bədbəxt hadisə məni üzmüşdü, qaraqura fikirlər başımdan çıxmırdı; dilxor halda kənd-kəsəyi dolaşırdım, özümə gələnə qədər düz on iki ay ötdü. Bizə üz verən bədbəxtlikdən təxminən bir il keçər-keçməz Lola yenə uşağa qaldı və ilk dəfə olduğu kimi səbirsizliyin, narahatlığın məni yenə diddiyini sevinclə hiss elədim: vaxt sürünürdü, istədiyim kimi tez keçmirdi, hara getsəm də içimdəki acığı soyuda bilmirdim".

***

Zalım tale gözünü necə qırıbsa, Paskual xoş xəbərə də sevinə bilmir, daha doğrusu, sevinməyə qorxur, bilir ki, amansız fələk gec-tez o sevinci də burnundan gətirəcək. Paskual Duartenin aqressiyası tamahından, iştahından, nəsə almaq, nəyəsə yiyələnmək həvəsindən, bir sözlə, yaşamaq ehtirasından güc almır. Bu aqressiya kasıblıqdan, ehtiyacdan, varlıya, imkanlıya paxıllıqdan da bəslənmir; yəni bəxtsiz qəhrəman sosial bərabərsizliyin qurbanına çevrilmiş potensial inqilabçı da deyil. Onun üsyanı taleyinə qarşıdır, fəqət başa düşmür ki, fələyə çomaq çəkdikcə həmin mənhus taleyin yazdığı rolun korkoranə icraçısına, fələyin gözübağlı kuklasına çevrilir. Paskualın aqressiyası onun qaysaq bağlamayan mənəvi yaralarından, qorxularından, ağrılarından, şübhələrindən bəslənir: "Adamayovuşmaz, qaraqabaq, xoflu olmuşdum, arvadımla anam bu halımdan baş çıxara bilmirdilər deyə hamımız ehtiyatlı tərpənirdik, hər dəqiqə qalmaqal qopacağından qorxurduq. Gərginlikdən üzülürdük, ancaq özümüz sanki onu qəsdən artırırdıq, hər şeydə eyham, hiylə, biclik görürdük..."

Kənara yönəlmiş aqressiyanın o biri ucu insanın özünü kəsir. Qatillik instinkti intihar ehtirasıyla əkizdir. Xofdan, günah hissindən doğan aqressiyanın son həddi, kulminasiyası insanın özünü bəlaya atması, yol gələn dərdlərin intizarına dözməyib fəlakəti qarşılamağa çıxmasıdır ("Mən istərəm bəlanı, çün istər bəla məni" - köklü məzmun fərqi olsa da, burada Füzuli yada düşür). Paskual Duarte adlanan bəndənin cisminə anadangəlmə qoyulmuş mühərrik də belə bir qara enerjiylə hərəkətə gəlir. Onun xoşbəxtliyə dartınan ruhu hər dəfə xoşbəxt olmaqdan qorxan, bədbəxtliyə susamış, başqalarının vasitəsilə özünü cəzalandırmaqdan zövq alan vücudunun nəhs niyyətinə ilişib qəzaya uğrayır. Sadiq ov tulasını heç bir səbəbsiz-filansız güllələyəndə belə o, əslində, gülləni bir ayrı məxluqa yox, özünə, öz bədəninin bir parçasına, gövdəsinin it cildində zühura gəlmiş uzantısına çaxır.

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Azərbaycanda gender bərabərliyinin təmini...

Ölkəmizdə qadınların hüquqlarının etibarlı qorunması, onların kişilərlə bərabər səlahiyyət və imkanlara malik olması aktuallıq kəsb edən məsələlərdəndir. Gender bərabərliyi sahəsində həyata keçirilən mütərəqqi addımlar bu gün də müşahidə olunmaqdadır. Azərbaycanda insan hüquqlarının müdafiəsi çərçivəsində gender bərabərliyinin təmin edilməsi və dövlət qulluğunda qanunun aliliyi prinsipinin qorunması istiqamətləri dövlət siyasətində əsas yer tutur.

Bu məqamda vurğulamaq yerinə düşər ki, gender bərabərliyinin çox mühüm tərkib hissələrindən biri olan qadınlara seçki hüququnun verilməsi sahəsində Azərbaycan təcrübəsi unikal nümunələrdəndir. Əvvəla qeyd edək ki, bir sıra aparıcı Qərb ölkələrindən fərqli olaraq Azərbaycanda qadınların siyasi hüquqları uğrunda kütləvi mitinqlər keçirilməyib. Buna rəğmən, Azərbaycan qadınları səsvermə hüququnu bəzi Qərb ölkələrində olduğundan daha əvvəl alıblar. Belə ki, Şərqdə ilk demokratik respublika quran Azərbaycanda qadınlara səsvermə hüququ 1918-ci ildə verilib. Məlumat üçün qeyd edək ki, ABŞ-ın bütün ərazisində qadınlara səsvermə hüququ 1920, Böyük Britaniyada 1928, Fransa və İtaliyada 1945, Yunanıstanda isə 1952-ci ildə verilib.

## “Qadınların seçkilərdə fəallığının yüksəldilməsi”

Bu günlərdə “Qadınların seçkilərdə fəallığının yüksəldilməsi” mövzusunda tədbir keçirilib. Tədbir Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Mərkəzi Seçki Komissiyası və “Bərabər İnkişaf Naminə” Koalisiyanın birgə əməkdaşlığı, Qusar Qadın Resurs Mərkəzinin iştirakı ilə baş tutub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən bildirilib ki, 105 qadının qatıldığı tədbirdə “Bərabər İnkişaf Naminə” Koalisiyanın üzvü Təranə Kərimova müasir dövrdə gender bərabərliyinin bütün sahələrdə olduğu kimi, dövlət idarəetməsi və siyasi sferada da qorunmasının vacibliyindən danışıb. O, Azərbaycan qadınlarının ölkəmiqyaslı tədbirlərdə daim aktivlik nümayiş etdirməsinin sevindirici hal olduğunu qeyd edib.



Sonra Qusar Dairə Seçki Komissiyasının sədri Cəlil İbrahimov seçki prosesində qadınların fəallığının nümayiş etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Qusar Rayon Mərkəzi Xəstəxanasının həkimi Xuraman Əliyeva və şəhər 2 saylı tam orta məktəbin müəllimi Rima Cavadova çıxış edərək, Qusarın qadın sakinlərinin rayon üzrə fəallığından danışıblar. Sonda tədbir iştirakçılarının təklifləri dinlənilib, suallarıcavablandırılıb.

## Qadın əməyinin qadağan olunduğu iş yerlərinin sayı azaldılıb

Bundan başqa, “Əmək münasibətləri, əməyin mühafizəsi və insan resursları ekoloji, sosial və korporativ idarəetmə yanaşmasının əsas istiqamətlərindən biri kimi” mövzusunda konfrans keçirilib. Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəis müavini Nərmin Mirzəyeva bildirib ki, ESG (ekoloji, sosial və korporativ idarəetmə) yanaşmasının tətbiqində sosial komponent mühüm əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, burada əsas diqqət əmək hüquqlarının qorunması, əməyin mühafizəsi və iş yerlərinin təhlükəsizliyinə yönəlir.

N. Mirzəyeva qeyd edib ki, Dövlət Əmək Müfəttişliyi Xidməti sosial qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər görüb: “Əsas dəyişikliklərdən biri gender bərabərliyinə nail olunması və qadınların hüquqlarının genişləndirilməsi ilə bağlıdır.

Əmək qanunvericiliyinə edilən dəyişikliklərə əsasən, qadınların bir sıra ağır və zərərli işlərdən kənarlaşdırılması məhdudiyyəti aradan qaldırılıb. Bunun əvəzinə, yalnız hamilə və 1 yaşına qədər uşağı olan qadınlar üçün xüsusi iş yerlərində işləmək qadağası tətbiq edilib. Nəticədə, qadınların əməyinin qadağan olunduğu iş yerlərinin sayı 700-dən 200-ə qədər azaldılıb.

Bununla yanaşı, ezamiyyətlər, əlavə iş saatları və qeyri-iş günlərində qadınların işə cəlb edilməsi ilə bağlı yeni qaydalar təsbit edilib. Xüsusilə, 14 yaşına qədər uşağı olan, hamilə və ya 18 yaşına qədər əlilliyi olan uşağı olan qadınların yalnız razılıq əsasında bu cür işlərə cəlb olunması qanuniləşdirilib. Bu dəyişikliklər nəticəsində Azərbaycanın Dünya Bankının gender bərabərliyi reytinqində indeksi 7 % artaraq 85-ə çatıb”.

## Qanunvericilik layihələri hazırlanıb

Xidmətin rəis müavini əlavə edib ki, hazırda gender bərabərliyinin təmin edilməsi ilə bağlı digər qanunvericilik layihələri də müzakirə olunur: “Bunlardan biri seksual qısnamaya qarşı tədbirlərin gücləndirilməsi, digəri isə eyni əmək üçün qadın və kişilərin bərabər əməkhaqqı almasını təmin edən 100 nömrəli konvensiyanın tətbiqi ilə bağlıdır. Bu istiqamətdə işlər davam etdirilir”.

*Yeganə BAYRAMOVA*

# Estetik “dr”lar...

## Bu günün “dəbi” sabahın faciəsi ola bilər!

**Son illərin tibbi xəbərləri, bu sahədə olan yeniliklər, uğurlu əməliyyatlar “uzman”, “dr.” kimi sözlərlə müşayiət olunur. İşində uğuru olan-olmayan, peşəkar olan-olmayan əksər şəxslər bir neçə aylıq seminar-kurslar keçdikdən sonra ölkəmizə qayıdanda adının qarşısına “uzman” sözünü də artırır. “Doktorlar” (dr.) isə lap şanslıdır, tibbi təhsilə ehtiyac qalmır, əlinə iynə ala bilirsə, olur dr.kosmetoloq. Necə deyərlər, vur çatlasın, çal oynasın, qaz vurub, qazan doldururlar.**

## Əsl uzman belə olmalıdır...

“Uzman” sözü Azərbaycan dilindəki “ekspert” sözünün türkcəsidir. Tibb fakültəsini bitirən hər kəs həkimdir, lakin konkret sahə seçəcəksə, bu sahənin həkimi, müasir dillə desək, uzmanı olmaq istəyirsə, 3-4 il həmin sahədə asisstentlik etməlidir. Yalnız bundan sonra cərrah, oftalmoloq, pediatr, ginekoloq və s. ola bilər. Yəni qısası, uzman həkim deyilirsə, o işinin öhdəsindən gələ bilən, öz sahəsinin eksperti olan həkimlərə deyilir. Qəribə burasıdır ki, əvvəllər bu sahədə baş ağardan, ömrünü peşəsinə həsr eləyən həkimlər yalnız uzun illərdən sonra özünü öz sahəsinin eksperti hesab edirdi. Daha doğrusu, onu cəmiyyət, tibb aləmi ekspert hesab edirdi, o özünü belə adlandırmırdı. Amma indi ali məktəbi yenicə qurtarmış, qonşu ölkələrdə bir-iki kurs təlimatı oxuyub ölkəmizə qayıdan bütün gənc həkimlər özünü “uzman” və “dr” adlandırır.



## “Tor”a düşməyə hazır o qədər qadın var ki....

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən kosmetoloq Tamilla Məmmədovanın sözlərinə görə, işinin peşəkarı olan, savadına güvənən hər bir kosmetoloq razı olar ki, bu işə nəzarət mexanizmi hazırlansın: “Yoxsa hər zirzəmidə bir salon, hər salonda 2-3 belə adam qadınların üzərində təcrübə keçib həkim olmaq sevdasına düşür. Hər gün bir tibbi-kosmetoloji prosedur kəşf edirlər. Gah damardan qan alırlar və onu üzə vururlar, üzdə iltihab yaranmasına səbəb olurlar. Gah buruna dolğu vurub əyrisini düzəldirlər, 6 aydan sonra yenə əyilir, yenə dolğu, yenə əyilir, axırda burun deformasiya olur. Xanımlara məsləhət görürəm ki, hər özünə səhifə açıb müştəri tutan “dr”-lardan uzaq gəzsinlər. Əgər simalarında bəyənmədikləri nəsə varsa bunun üçün peşəkar həkimə müraciət etsinlər, ölkəmizdə xaricdə kosmetologiya oxuyan kifayət qədər çox peşəkar həkim var. Qonşu ölkələrdə həkimlər bu işi icra edə bilmək üçün ali məktəbdə təhsili alırlar, müvafiq nazirliyin sertifikasiyasından keçirlər. Bizdə dr.kosmetoloq olmaq üçün bir-iki seminar, 1 A4 kağızına çıxarılmış əsassız diplom, bir də yaxşı piar olmalıdır. Tora düşməyə hazır o qədər qadın var ki...”.

## “İnstaqram” dr.-ları...

Dr. da doktorun qısaldılmış formasıdır. Dəbdə olan ifadədir. Bunu virtual platformanın həyatımıza bu qədər çox müdaxiləsindən sonra müşahidə elədik. Ölkədə özünə “dr.filankəs” deyən adamların sayı durmadan artır. Xüsusilə, kosmetologiya sahəsində vəziyyət dəhşətlidir. Azərbaycan Tibb Universitetində kosmetologiya fakültəsi yoxdur. Yəni bizim ali tibb ocağımız kosmetoloq yetişdirmir. Ona görə də hazırda bu sahə üzrə çalışanların böyük əksəriyyəti ixtisaslı həkim deyillər. Çoxu heç ixtisasca həkim də deyil. Özünə bir “İnstaqram” səhifəsi açıb “dr.kosmetoloq” adı qoyan və insanların sağlamlığı üzərində eksperimentlər keçirən qeyri-peşəkar insanlar göbələk kimi artır...

Süni materialları, naməlum maddələri insanların dodağına, burnuna, yanağına yeridərək müqabilində yaxşı pul qazanan bu insanlara nəzarət yoxdur. Əksəriyyəti bir gözəllik salonu açıb orada fəaliyyət göstərir. Qanunla Səhiyyə Nazirliyi gözəllik salonlarında müvafiq yoxlamalar aparmır, bu işlə prokurorluq məşğul olur, onlar da şikayət əsasında. Yəni əgər şikayət olunmasa bu salonlarda qadınların sağlamlığına qəsdən və ağır formada zərərvurma prosesi elə belə də davam edəcək!

## Qadınlar niyə şikayət etmir?

Qadınlar şikayət etmirlər, çünki normal halda ixtisasca həkim olan, Tibb Universitetini bitirən, sonra da kosmetologiyaya marağı olub da xaricdəki tibb ocağında ixtisası oxuyan peşəkar həkim bu proseduru “qırdı-qaçdı” etmir. Normalda 200-300 manat tutan peşəkar bir prosedur bu salonlarda 50-70 manata edilir. Məsələn, dodağınıza nə olduğu bilinməyən bir maddəni yeridib sizi istədiyiniz böyük həcmli dodaqlara qovuşdururlar. Sizin başınıza növbəti aylarda nə gələcək, xərçəngə yoluxacaqsınız, dodağınız çürüyəcək, burnunuz qopub düşəcək - bütün bunlar onlar üçün maraqlı deyil. Bir sözlə, öz sağlamlığına dəyər verməyən pasiyent onlar üçün potensial “ov”dur...

## Hər kəs estetik əməliyyat etdirir...

Psixoloq Aynur Ələkbərova bildirib ki, bir insanın gözlə görünən bir qüsuru varsa və bu onun sosiallaşmasında problem yaradırsa, estetik əməliyyat etdirə bilər: “Bəzən travmalardan sonra üzdə izlər qalır. Yaxud elə insanlar var ki, burun çəpəri əyridir, rahat nəfəs ala bilmir. Bu cür hallarda, əlbəttə ki, əməliyyat etmək olar. Belə olduqda həmin insanın özünə inamı da yerinə gəlir. Yəni, əməliyyatın müsbət tərəfləri də var. Amma bu gün Azərbaycanda demək olar hər kəs estetik əməliyyat etdirir”.

## Psixoloq rəyi vacibdir

A.Ələkbərova estetik əməliyyatlarda psixoloq rəyi olmasının vacibliyindən də danışıb: “Heç bir estetik cərrah icazə verməz ki, estetik əməliyyatlarda psixoloq rəyi olsun, çünki psixoloq rəyindən sonra həmin insan o əməliyyatdan imtina edə bilər. Bəzi “həkimlər” var, mənə xəstə yönləndiriblər, deyiblər ki, xəstə əməliyyata girəndə qorxub çıxıb. Ona güvən verin ki, əməliyyata razı olsun, qorxmasın, amma demir ki, onun əməliyyata ehtiyacı yoxdur. Bunu heç bir “həkim” etmir”.

*Yeganə BAYRAMOVA*

# “Azercell”in dəstəklədiyi “FarmHer” layihəsi qadınların aqrobiznes sahəsində bilik və bacarıqlarının inkişafına töhfə verir

**Lider mobil operatorun elan etdiyi sosial layihə müsabiqəsində qalib gələn “Alternativ” Kommunikasiya və Tədqiqatlar İctimai Birliyi “FarmHer” proqramını həyata keçirir**

“Azercell”in qadınların cəmiyyətdəki rolunun daha da gücləndirilməsi məqsədilə elan etdiyi müsabiqəsinin qalibləri layihələrinin icrasına başlayıblar. Qaliblərdən biri olan “FarmHER” proqramı kənd təsərrüfatı sahəsində çalışan qadınların bilik və bacarıqlarının inkişafına yönəlik təlimlərə start verib.

Layihənin əsas məqsədi bölgələrdə yaşayan qadınları aqrobiznes sahəsində mövcud fəaliyyət istiqamətləri ilə tanış etmək, onların iqtisadi müstəqilliyinə və rifahının artırılmasına töhfə verməkdir. Bu proqram qadınların aqrar sahədə sahibkar kimi formalaşmasına dəstək verir. Təlimlər yeni texnologiyalar, bazara çıxış, maliyyə idarəçiliyi, innovasiyalar və sahibkarlıq strategiyaları kimi mövzuları əhatə edir.

Qeyd edək ki, bugünədək Şamaxıda yaşayan 25 qadın üçün bir neçə təlim və müxtəlif interaktiv sessiyalar təşkil olunub. Əlavə olaraq, proqram iştirakçıları layihə çərçivəsində peşəkar mentorlarla da təmin ediliblər.

Xatırladaq ki, “Alternativ” Kommunikasiya və Tədqiqatlar İctimai Birliyinin həyata keçirdiyi “Farmher” layihəsi “Azercell”in “Həyatı daha dolğun edirik: qadınlara dəstək proqramı”nın dörd qalibindən biridir.





Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 3779
Sifariş: 113
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova